HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 04 (694) ■ 29 yanvar 2014 www.vergiler.az Qiymәti: 40 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyev: «Şahdəniz-2» Avropanın ən iri infrastruktur layihəsi olacaqdır»

## Dövlət başçısı Davosda bir sıra işgüzar görüşlər keçirmişdir

*Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 21-də İsveçrəyə işgüzar səfər edən Azərbaycan Prezidenti İlham Əliyev tədbir çərçivəsində bir sıra nüfuzlu şirkətlərin rəhbərləri ilə görüşmüşdür.*




Azərbaycanın dövlət başçısı «Holcim» şirkətinin sədri və baş icraçı direktoru Bernar Fontana ilə görüşmüş, ikitərəfli əlaqələrin hazırkı vəziyyətini müzakirə etmişlər. Görüşdə «Holcim» şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd olunmuş, holdinq ilə ölkəmiz arasındakı əməkdaşlığın daha da genişləndirilməsi, Azərbaycanla İsveçrə arasında qarşılıqlı investisiyaların əhəmiyyəti qeyd olunmuşdur.

Prezident İlham Əliyevin Fransanın «Airbus Group International» şirkətinin baş icraçı direktoru Jan Pyer Talamoni ilə görüşündə ölkələr arasında əlaqələrin sürətlə inkişaf etməsi, iqtisadi sahədə, o cümlədən kosmos sənayesi sahəsində əməkdaşlığımızın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur. «Swiss Re» şirkətinin beynəlxalq əlaqələr üzrə sədri Martin Parker ilə görüşdə isə Azərbaycan ilə «Swiss Re» şirkəti arasında əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın dövlət başçısı yanvarın 22-də Davosda İsrail Dövlətinin Prezidenti Şimon Peres və Baş nazir Benyamin Netanyahu ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi, hərbi, eləcə də elm, təhsil, kənd təsərrüfatı sahələrini əhatə etdiyi bildirilmiş, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri geniş müzakirə olunmuşdur.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə Prezident İlham Əliyevin görüşündə isə Azərbaycanda son vaxtlar gedən proseslər, iqtisadi inkişaf, qeyri-neft sektoruna göstərilən diqqət və əldə edilən nailiyyətlər, işsizliyin və yoxsulluğun aradan qaldırılması və korrupsiyaya qarşı mübarizədən məmnunluq bildirilmişdir. Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunmuşdur.

Yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində «Avrasiya - yeni sərhədlər» mövzusunda sessiya keçirilmişdir. Sessiyada çıxış edən Azərbaycan Prezidenti ölkəmizin regional əməkdaşlığın gücləndirilməsi üçün böyük işlər gördüyünü, regionda enerji layihələrinin təşəbbüskarı kimi öz töhfəsini verdiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanın gerçəkləşdirdiyi enerji layihələri bölgə dövlətlərinin sıx birliyinin möhkəmlənməsinə səbəb olmuşdur: «Hazırda əsas prioritet nəhəng enerji layihələrinin icrasıdır. Mən ötən ay icrasına başladığımız «Şahdəniz-2» layihəsini nəzərdə tuturam. Layihəyə əsasən iki qaz boru kəməri inşa ediləcəkdir - biri Türkiyə ərazisindən, digəri isə Türkiyə-Yunanıstan sərhədindən İtaliyaya istiqamətlənəcəkdir. Biri Trans-Anadolu, digəri isə Trans-Adriatik kəməri adlanır. Bu iki layihə nəhəng yataqlardan təbii qazın nəqlini nəzərdə tutur və bu, Avropanın ən iri infrastruktur layihəsi olacaqdır».

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən danışan Prezident İlham Əliyev layihənin Avropanı və Asiyanı birləşdirəcəyini və regionda yeni «İpək yolu» adlandırıldığını bildirmişdir: «Ümid edirəm ki, dəmir yolu xətti 2015-ci ildə istifadəyə veriləcəkdir. Yəni bu, həm nəqliyyat, həm enerji əlaqəsidir, eyni zamanda qarşılıqlı sərmayə qoyuluşu deməkdir. Xüsusilə, əlavə maddi resurslara malik olan ölkələr yeni sərmayə imkanları axtarırlar və düşünürəm ki, bu gün Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya sərmayə qoyuluşu baxımından əlverişli məkanlardır. Çünki burada inkişaf edən bazarlar mövcuddur, sürətli əhali artımı və dinamik iqtisadi inkişaf potensialı vardır».

Dövlət başçısının yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşündə Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilmiş və əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi qeyd olunmuşdur. Azərbaycanın dövlət başçısı həmin gün «Philips» şirkətinin vitse-prezidenti və satış üzrə rəhbəri Ronald de Jong ilə görüşmüş, şirkətin Azərbaycanda mümkün əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. «Hewlett-Packard» şirkəti idarə heyətinin üzvü xanım Ann Livermor və «GDF Suez» şirkətinin baş icraçı direktoru Jerar Mestrale ilə görüşlərdə də Azərbaycanla əməkdaşlığın uğurlu inkişafı müzakirə olunmuş, müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinin vacibliyinə toxunulmuşdur. Həmçinin, «Microsoft International» şirkətinin prezidenti Jan Filip Kurtua ilə görüşdə şirkətin ölkəmizdəki fəaliyyətindən, müxtəlif sahələrdə həyata keçirdiyi layihələrdən məmnunluq ifadə olunmuşdur.

Prezident İlham Əliyevin Niderland Krallığının Baş naziri Mark Rutte ilə görüşündə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafı qeyd edilmiş, ölkələr arasında fəal iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı potensialın olduğu bildirilmiş, investisiya qoyuluşunun iqtisadi əlaqələrin gücləndirilməsinə xidmət etdiyi diqqətə çatdırılmışdır. İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter ilə görüşdə də ikitərəfli münasibətlərin vəziyyəti, siyasi, iqtisadi, energetika, sərmayə qoyuluşu, tikinti və bank sektorunda əməkdaşlıq məsələləri müzakirə mövzusu olmuşdur.

Prezident İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşündə iki ölkə arasındakı yüksək siyasi və iqtisadi əlaqələrin mövcud vəziyyəti müzakirə edilmişdir. Hər iki tərəf ümumi tarixi-mədəni köklərə malik ölkələrin və xalqlarımızın qonşuluq və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlara malik olduğunu bildirmişlər. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin və regional əməkdaşlığın daha da gücləndirilməsi üçün hər iki tərəfin səylərinin artırılacağına əminlik ifadə edilmiş, münasibətlərimizin gələcəkdə daha da genişləndirilməsi üçün konkret istiqamətlərin müəyyənləşdirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Yanvarın 23-də Davosda «Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol» mövzusunda qəbul keçirilmişdir. Tədbirdə iştirak edən Prezident İlham Əliyev iştirakçıların suallarını cavablandırmışdır. Dövlət başçısı bildirmişdir ki, Azərbaycan regionda əməkdaşlığın gücləndirilməsi, Cənubi Qafqaz və Mərkəzi Asiyanın inteqrasiyası üçün vacib rol oynayır. «Biz geniş boru kəmərləri şəbəkəsi vasitəsilə Xəzər, Qara və Aralıq dənizlərini birləşdirməyə müvəffəq olduq. Bu gün Azərbaycan yalnız enerji resurslarının təchizatçısı deyil, həm də tranzit ölkədir. Mərkəzi Asiya dövlətləri öz təbii sərvətlərini bizim infrastruktur vasitəsilə nəql edir. Bu layihə həm istehsalçı, həm istehlakçı, həm də tranzit ölkələr üçün faydalı şərait yaradıb. Bu layihə tərəfimizdən icra edilən yeni bir layihənin başlanğıcı olub. Mən Türkiyəni və Avropanı əhatə edəcək boru kəməri, həmçinin Avropanın ən iri infrastrukturu hesab olunan «Şahdəniz-2» layihəsini nəzərdə tuturam. Ötən ilin dekabrında 25 milyard dollar dəyərində olan «XXI əsrin müqaviləsi» adlandırdığımız sənədi imzaladıq. Bu nailiyyət göstərir ki, qarşılıqlı dəstək və marağa əsaslanan geniş və səmimi əməkdaşlıq olduğu halda uğurlu nəticələr əldə edilir».

Dövlətimizin başçısı yanvarın 24-də Davosda Fransanın xarici işlər naziri Loran Fabius ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulanmış, Fransa şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyətindən və qarşılıqlı sərmayələrin əhəmiyyətindən danışılmışdır.

# Dövlətimizin başçısı Gəncə şəhərinə və Göygöl rayonuna səfər etmişdir



*Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərində Heydər Əliyev park-kompleksinin və Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

Dövlətimizin başçısı əvvəlcə yenidən qurulan Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət etmişdir. Daha sonra ölkə Prezidenti Gəncədə möhtəşəm layihə əsasında yeni tikilən Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Həmin gün Prezident İlham Əliyev Gəncə Olimpiya Parkının təməlqoyma mərasimində iştirak etmişdir. Dövlətimizin başçısına respublika əhəmiyyətli, o cümlədən Gəncə bölgəsi üzrə idman yarışlarının keçirilməsi məqsədilə müasir tələblərə uyğun tikiləcək Olimpiya Parkının eskiz layihəsi haqqında geniş məlumat verilmişdir.

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Məhsəti Gəncəvi Mərkəzinin açılışında da iştirak etmişdir. Məlumat verilmişdir ki, mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanılmışdır. Klassik memarlıq üslubunda tikilmiş binada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyası, tədqiqatçılar üçün oxu zalı və yardımçı otaqlar yerləşir. Oxu zalında ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və mədəniyyətimizin hamisi olan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat və fəaliyyətini işıqlandıran kitablar yer almışdır.

Yanvarın 21-də Azərbaycan Prezidenti Gəncədə 1500 məcburi köçkün ailəsi üçün tikilmiş yeni yaşayış məhəlləsi ilə tanış olmuşdur. Məhəlləyə gələn dövlətimizin başçısı əvvəlcə Kəlbəcər Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanış olmuşdur.

Prezident İlham Əliyevə məlumat verən Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirmişdir ki, lazımi avadanlıqla təchiz olunan binada işçilərin rahat fəaliyyəti üçün bütün tələblər nəzərə alınmışdır.

Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində «DET-AL Alüminium» MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının açılışında da iştirak etmişdir. Dövlətimizin başçısı metaltökmə və fasiləsiz yayma zavodu ilə tanış olmuşdur.

Ölkə başçısı Gəncədə Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi ilə tanış olmuş, habelə yeni inşa olunmuş Gəncə dairəvi avtomobil yolunun açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev daha sonra Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Gəncə «ASAN xidmət» mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına məlumat vermişdir ki, «ASAN xidmət» mərkəzi ötən il dekabrın 21-dən vətəndaşlara xidmət göstərməyə başlamışdır. Gəncə «ASAN xidmət» mərkəzi şəhərin və bir neçə ətraf rayonun əhalisinə xidmət edir.

Gəncəyə səfərini başa vuran dövlətimizin başçısı yanvarın 21-də Göygöl şəhərinə gələk Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Prezident İlham Əliyev Heydər Əliyev parkı ilə də tanış olmuşdur.

Dövlətimizin başçısına burada aparılan abadlıq və yenidənqurma işləri barədə məlumat verilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən parkdakı Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, kinoteatr və uşaq əyləncə mərkəzi ən müasir standartlara cavab verir.

Prezident İlham Əliyev həmin gün Göygöldə Gənclər Mərkəzinin, Olimpiya İdman Kompleksinin açılış mərasimlərində də iştirak etmişdir.

2 Azərbaycanın vergi sistemi mütərəqqi model kimi öyrənilir

3 Məqsəd kadrların bilik və bacarıqlarının, peşə hazırlığı səviyyəsinin yüksəldilməsidir

4 Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

5 İnsan kapitalının inkişafına daha çox vəsait cəlb ediləcək

# Azərbaycanın vergi sistemi mütərəqqi model kimi öyrənilir

*Qazaxıstanın Xəzinədarlıq və Vergi komitələrinin rəhbər vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti yanvarın 21-dən 23-dək Bakıda işgüzar səfərdə olmuşdur. Qonaqlar Vergilər Nazirliyinin ayrı-ayrı strukturlarının fəaliyyəti ilə yaxından tanış olmuş, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı müzakirələr aparmışlar.*



Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov nazirliyin rəhbərliyi adından qonaqları salamlayaraq, onlara Azərbaycanın vergi sistemi haqqında ətraflı məlumat vermişdir.

Sonra nazirliyin rəhbər vəzifəli əməkdaşları ölkəmizdə vergi ödəyicilərinə göstərilən xidmətlər, Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, fiziki və hüquqi şəxslərin onlayn qeydiyyatı, ƏDV depozit hesabının tətbiqi qaydaları və digər təqdimatlarla çıxış etmişlər.

Yanvarın 22-də Qazaxıstan nümayəndə heyətinin üzvləri Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin fəaliyyəti ilə tanış olmuşlar. Departamentin rəisi Zaur Fətizadə bildirmişdir ki, departamentdə qeydiyyatda olan vergi ödəyiciləri respublika iqtisadiyyatında xüsusi çəkiyə malik hasilat, sənaye, rabitə, nəqliyyat, tikinti-quraşdırma müəssisələrini, habelə bankları əhatə edir. Qeyd olunmuşdur ki, bu tipli müəssisələrdə vergi nəzarəti Vergi Məcəlləsi ilə yanaşı, hasilatın pay bölgüsü haqqında sazişlərin vergiqoyma maddəsinə və həmin sazişlərə əsasən qəbul edilmiş mənfəət vergisi, əlavə dəyər vergisi, əməkdaşların vergiyə cəlb edilməsi və digər vergilər üzrə protokollara uyğun aparılır. Qonaqların nəzərinə çatdırılmışdır ki, departament nazirliyin siyasətinə uyğun olaraq xüsusi rejimli vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi istiqamətində sistemli iş görür.

Vergi orqanlarında göstərilən elektron xidmətlərdən söz açan Z.Fətizadə vurğulamışdır ki, bu istiqamətdə mühüm yeniliklərdən biri 2008-ci il yanvarın 1-dən ƏDV-nin vahid depozit hesabının tətbiqinə başlanılması olmuşdur. Yeni sistem ƏDV-nin hərəkəti və əvəzləşdirilməsinə, ƏDV üzrə dövlət büdcəsinə ödənişlə bağlı vergi ödəyicilərinin əməliyyatlarına vergi orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsinə imkan yaratmışdır. ƏDV depozit hesabının tətbiqi nəticəsində ƏDV üzrə daxilolmalar yüksələn xətlə artmış, 2010-cu ildən le-ƏDV» hesab-fakturalarının tətbiqinə başlanılmışdır.

ƏDV depozit hesabı vergi orqanları üçün geniş informasiya bazası rolunu oynamaqla vergi inzibatçılığını sadələşdirməyə və təkmilləşdirməyə, vergi ödəyicilərinin inzibatçılıq xərclərini azaltmağa xidmət edir. ƏDV depozit hesabının tətbiqi ilə iqtisadiyyatda ƏDV-nin ödənilməsindən yayınmaya və onun əvəzləşdirilməsi üzrə qeyri-qanuni hallara qarşı yeni və səmərəli mexanizmin tətbiqinə nail olunmuşdur.

Qazaxıstan Xəzinədarlıq Komitəsinin sədr müavini Aygül Bayqujina bildirmişdir ki, Azərbaycanın vergi sistemi dünyanın aparıcı vergi sistemlərinin ən modern elementlərini özündə birləşdirir. Vergi dərəcələri, bəyannamələrin təqdim olunması və vergilərin ödənilməsi dövlətin və vergi ödəyicilərinin maraqlarını optimal səviyyədə uzlaşdırır. Qeyd edilmişdir ki, Azərbaycanın vergi sisteminin dövlət və biznes qurumları arasında etibarlı tərəfdaşlıq prinsipinə əsaslanması xüsusilə diqqətəlayiqdir.

Qazaxıstan Vergi Komitəsinin ƏDV inzibatçılığı şöbəsinin müdiri Nurlan Raximqaliyev isə Vergilər Nazirliyinin öz fəaliyyətində innovativ yenilikləri tətbiq etməyə, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin davamlı şəkildə yüksəlməsinə çalışan dövlət qurumu olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, Azərbaycanın vergi orqanlarının xüsusilə iri vergi ödəyiciləri ilə iş sahəsində müsbət təcrübəsi Qazaxıstan vergi orqanları üçün də maraqlıdır. Azərbaycanda 2013-cü il yanvarın 1-dən sənaye texnoparklarının 7 il müddətində bir sıra vergilərdən azad olunması da mühüm yenilik kimi dəyərləndirilmişdir.

Daha sonra görüş müzakirələr formatında davam etbirilmiş, Qazaxıstan nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılmışdır.

**S.MUSTAFAYEV**

# Vergi ödəyiciləri məlumatlandırılır

*2013-cü il ərzində vergi ödəyicilərinə göstərilən bütün xidmətləri, onların göstərilməsi meyarlarını, xidmətlərin həyata keçirildiyi yerlərə, xidmət göstərən vergi orqanı əməkdaşının davranış və ünsiyyətinə dair ümumi tələb və normaları müəyyən etmək məqsədilə «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» hazırlanmış, vergilər nazirinin əmri ilə təsdiq olunmuş və bununla vergi ödəyicilərinə 124 adda xidmətin göstərilməsi müəyyən edilmişdir.*

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı 2013-cü ilin may ayından Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) fəaliyyətə başlamışdır. ASXM tərəfindən göstərilən xidmətlər, Asan (mobil) İmza sertifikatı barədə məlumatlandırma tədbirləri həyata keçirilmiş, sertifikatın alınması üçün zəruri sənədlər nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilmişdir. Hesabat ilinin sonunadək vətəndaşlar tərəfindən Asan İmza sertifikat xidmətləri üzrə 11805 müraciət olmuş, ümumilikdə 22423 Asan İmza sertifikatı verilmişdir.

Vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi və göstərilən xidmətlərin çeşidinin artırılması məqsədi ilə vergilər nazirinin əmri ilə «Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları» təsdiq olunmuş, xidmət mərkəzlərinin fəaliyyətinin qiymətləndirilməsi və təhlili meyarları müəyyən edilmişdir.

Vergilərin könüllü ödənilməsi sisteminin və sahibkarlığın inkişafı məqsədilə yaradılan xidmət mərkəzlərinin sayı 40-a çatmışdır. Bu mərkəzlərdə göstərilən xidmətlərin səviyyəsinin dəyərləndirilməsi üçün vətəndaşlara sorğuda iştirak etmək, rəy və təkliflərini bildirmək, eləcə də mərkəzin fəaliyyəti ilə bağlı hər hansı narazılıq olduqda mərkəzdən çıxmadan Vergilər Nazirliyinə birbaşa müraciət etmək imkanı yaradılmışdır.

2013-cü il ərzində göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi ödəyicilərinə xidmət mərkəzlərinin Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) inteqrasiyası başa çatdırılmış, mərkəzlər AVİS sisteminə qoşulmuş və sürətli internet xətti ilə təchiz olunmuşdur.

Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, «vergi» məfhumunu ölkəmizin bütün ərazisinə, xüsusilə ərazi vergilər departamentlərinin və idarələrinin, rayon vergi şöbələrinin yerləşdiyi şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrə, hər bir ailəyə çatdırmaq, bununla da vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq məqsədilə «Vergi dostları» layihəsi çərçivəsində 2013-cü il ərzində 1405 nəfər «Vergi dostları» şəbəkəsinə cəlb olunmuş, bununla da ərazi vergilər departamenti və idarələrinin, rayon vergi şöbələrinin əhatə dairəsinə daxil olan 53 rayon üzrə ümumtəhsil məktəblərinin müəllimlərindən 1541 nəfər bu şəbəkəyə cəlb olunmuşdur.

2013-cü il ərzində respublika üzrə mənfəət və gəlir vergisi bəyannaməsini təqdim etməli olan 15208 vergi ödəyicisinin 95,7%-i bəyannamələri vaxtında təqdim etmiş, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan illik vergi bəyannaməsini vaxtında təqdim etmiş vergi ödəyicilərinin xüsusi çəkisi 96,2% təşkil etmişdir. Ümumilikdə 2013-cü il ərzində bəyannamələrin 92,8%-i elektron qaydada təqdim edilmişdir.

# Davos Forumu Azərbaycanın iqtisadi nüfuzunu nümayiş etdirdi

*44-cü Ümumdünya İqtisadi Forumunda dünyanın aparıcı ölkələrinin liderləri, ən tanınmış şirkətləri və kooperasiyaları tərəfindən qlobal iqtisadi proseslər və maliyyə, enerji, ətraf mühit, makroiqtisadiyyatla bağlı iqtisadi təhlillər aparıldı, aparıcı şirkətlərin rəhbərləri və hökumət üzvləri arasında əməkdaşlıq əlaqələrinin yaradılmasına dair razılaşmalar əldə olundu.*

*Forumda Azərbaycanın regionda enerji layihələrinin təşəbbüskarı kimi geniş regional əməkdaşlığa verdiyi töhfə yüksək qiymətləndirilib*

10 ildən artıqdır ki, Azərbaycanın dövlət başçısı səviyyəsində təmsil olunduğu forumun sessiyalarında ölkəmizin böyük iqtisadi potensialı, həyata keçirilən islahatlar, respublikamızın enerji təchizatındakı rolu da müzakirə edildi.

Dünya İqtisadi Forumunun budəfəki sessiyasında qlobal enerji təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirildi. «Avrasiya - yeni sərhədlər» mövzusunda keçirilən tədbirdə enerji təhlükəsizliyində zəngin təchizatçı dövlətlərin, Xəzər və Mərkəzi Asiya regionu ölkələrinin, xüsusilə də Azərbaycanın mövqeyi başlıca müzakirə mövzusu oldu. Respublikamızın neft və qaz marşrutlarının ixracında çoxşaxəlilik strategiyasına üstünlük verməsi, yeni layihələrin yaranmasında əsas təşəbbüskarlıq səyləri təqdir edildi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında fəal rolu, regionda enerji əməkdaşlığı formatının genişlənməsinə verdiyi töhfə birmənalı şəkildə dəstəkləndi. Karbohidrogen ehtiyatlarının Şərq-Qərb dəhlizi vasitəsilə dünya bazarlarına çatdırılmasında yeni enerji dəhlizləri olan TANAP VƏ TAP-ın gerçəkləşməszində Azərbaycanın nümayiş etdirdiyi siyasi qətiyyət yüksək qiymətləndirildi.

Dünya İqtisadi Forumu çərçivəsində «Avrasiya - yeni sərhədlər» mövzusunda keçirilən sessiyada Azərbaycanın regionda enerji layihələrinin təşəbbüskarı kimi geniş regional əməkdaşlığa verdiyi töhfə yüksək qiymətləndirilib. Eyni zamanda, Avropanı və Asiyanı birləşdirəcək «Dəmir İpək Yolu» adlanan Bakı-Tbilisi-Qars layihəsinin əhəmiyyətinə də toxunulub.

Davos Forumunda ölkəmizin İKT sahəsində də böyük uğurlar əldə etməsi, kosmik dövlətlər sırasına daxil olması, ABŞ və Avropanın nüfuzlu kommunikasiya şirkətlərinin Azərbaycanla əməkdaşlığa başlamaq niyyətləri diqqətə çatdırıldı. Toplantı çərçivəsində dünyanın ən nüfuzlu şirkətlərinin rəhbərləri Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşdə respublikamızın iqtisadiyyatına investisiya qoymaq niyyətlərini bəyan etdilər.

İqtisadçı ekspert Əli Məsimlinin sözlərinə görə, Ümumdünya İqtisadi Forumu ilə Azərbaycan arasında sıx əlaqələr mövcuddur və bu, özünü bir neçə istiqamətdə göstərir. Bu nüfuzlu təşkilatla uzun müddətdir ki, qurulmuş əməkdaşlıq əlaqələri ildən-ilə daha da inkişaf etdirilir. Respublikamızın iqtisadi strukturlarının nümayəndələri, müxtəlif iqtisadi və sosial sahələr üzrə ekspertlər, elm və innovasiyalar üzrə tanınmış şirkətlərin, özəl biznes qurumlarının əməkdaşları forumun qlobal miqyaslı tədbirlərində müntəzəm iştirak edir, müxtəlif məsələlələr barədə müzakirələr aparırlar. Həmin görüşlərin nəticəsi olaraq səmərəli əməkdaşlıq qurulması, birgə layihələrin həyata keçirilməsi barədə razılaşmalar əldə olunur. Hazırkı tədbirdə də İKT, kosmik sənaye və digər sahələrdə əməkdaşlıq haqqında faydalı danışıqlar aparıldı.

Ə.Məsimli qeyd edir ki, təşkilatın Azərbaycana yüksək etimadının nümunəsi olaraq, 2013-cü ilin aprel ayında Davos Forumu Bakıda keçirildi: «İndiyədək Davos İqtisadi Forumu yalnız iki dəfə İsveçrədən kənarda keçirilib, onlardan biri Azərbaycandır. Bunun əsas səbəbi ölkəmizin son 10 ildə öz inkişaf modelinə, iqtisadi göstəricilərinə və iqtisadiyyatının unikallığına görə dünya iqtisadçılarının, beyin mərkəzlərinin və iqtisadi reytinq göstəricilərini müəyyənləşdirən beynəlxalq qurumların diqqətini cəlb etməsidir. Avropada qlobal iqtisadi böhranın hələ də tam aradan qaldırılmadığı bir dövrdə Azərbaycan hər il bütün makroiqtisadi göstəricilər üzrə dinamik irəliləyişini davam etdirir. Davos İqtisadi Forumunun Azərbaycanda keçirilməsi ölkəmizin iqtisadi nüfuzunun artmasının, təkcə region dövlətləri arasında deyil, bütün dünyada tanınmasının sübutu idi».

Dünya İqtisadi Forumunun hesabatlarında Azərbaycanın əhəmiyyətli yerdə qərar tutmasına diqqət çəkən ekspertin sözlərinə görə, təşkilatın hazırladığı «2013-2014-cü illər üçün Qlobal Rəqabətlilik Hesabatı»na əsasən, Azərbaycan rəqabətqabiliyyətlilik indeksi üzrə mövqeyini daha da yaxşılaşdıraraq 148 ölkə arasında 39-cu pilləyə yüksəlib. Azərbaycan bu indeks üzrə MDB və türk dövlətləri arasında birinci yerdədir.

Ümumiyyətlə, Davos Forumunda Azərbaycanın dövlət başçısının Avropa Yenidənqurma və İnkişaf Bankı, «Holcim», «Airbus Group International», «Philips», «Microsoft International» və digər nüfuzlu şirkət və maliyyə qruplarının rəhbərləri ilə keçirdiyi səmərəli, işgüzar və faydalı görüşlər Qərb şirkətlərinin ölkəmizə yeni investisiya qoyuluşları və əməkdaşlığın möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicilərinin hüquqlarının qorunması

*Son illərdə Vergi Məcəlləsinə edilən dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, onların hüquqlarının qorunmasına xidmət edir. Azərbaycanda vergi ödəyicilərinin hüquqları ilə bağlı qanunvericilik bazası, beynəlxalq meyarlarla yanaşdıqda, əsaslı şəkildə liberallaşmışdır.*

*Vergilər Nazirliyi vergi ödəyicilərinə məhkəmələrə getmədən öncə vergi orqanının yuxarı instansiyalarında öz hüquqlarını bərpa etmək üçün geniş imkanlar yaratmışdır*

Mövcud vergi qanunvericiliyinə əsasən, vergi ödəyiciləri hər zaman vergi orqanlarından qeydiyyat (uçot) yeri üzrə qüvvədə olan vergilər, onların ödənilmə qaydası və şərtlərini tənzimləyən normativ-hüquqi aktlar, öz hüqüq və vəzifələri, vergi orqanlarının, onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında əvəzsiz olaraq yazılı məlumat ala bilərlər. Həmçinin, odəyicilər vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar, vergi qanunları ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etməklə bağlı məlumatlar əldə edə bilərlər. Bundan başqa, ödəyici artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək və vergi münasibətlərində bilavasitə və ya öz nümayəndəsi vasitəsi ilə iştirak etmək hüququna malikdir.

Qeyd edək ki, vergi ödəyicilərinə vergi yoxlaması ilə bağlı tərtib edilən aktların (protokolların), vergi orqanlarının qərarlarının surətini almaq, vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək hüquqları verilir.

Vergi ödəyicisinin müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət etmək hüququ var. Ödəyici qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını, vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini tələb edə bilər.

Vergilər Nazirliyi vergi ödəyicilərinə məhkəmələrə getmədən öncə vergi orqanının yuxarı instansiyalarında öz hüquqlarını bərpa etmək üçün geniş imkanlar yaratmışdır. Nazirlikdə fəaliyyət göstərən Vergi Apelyasiya Şurası məhz bu məqsədə xidmət edir. Şuraya müraciət edən vergi ödəyicilərinin müraciətləri diqqətlə araşdırılır və yaranan mübahisələrin obyektiv və mümkün olan hallarda maksimum şəkildə vergi ödəyicisinin xeyrinə həll olunması üçün tədbirlər görülür.

Ölkəmizdə həyata keçirilən vergi siyasətinin başlıca istiqamətlərindən biri də vergi ödəyicilərinin müraciətlərinin diqqətlə araşdırılmasıdır. Vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması böyük əhəmiyyət kəsb edir.

**Rəşad SADIQOV**

# Məqsəd kadrların bilik və bacarıqlarının, peşə hazırlığı səviyyəsinin yüksəldilməsidir



*«Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»na əsasən, bu il vergi orqanlarında insan resursları sahəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Vergilər Nazirliyinin İnsan resursları idarəsinin rəisi Faiq Şahbazov qəzetimizə müsahibəsində bu və digər məsələlərə aydınlıq gətirmişdir.*

***- Faiq müəllim, Vergilər Nazirliyinin insan resursları strategiyasının prioritetlərini ümumi şəkildə necə səciyyələndirə bilərik?***

- Sürətlə qloballaşan dünyanın yeni aktual çağırışları idarəçilikdə insan resursları strategiyasının düzgün qurulmasını, bu sahədə innovasiyaların tətbiqini obyektiv zərurətə çevirmişdir. Bu reallıqdan çıxış edən Vergilər Nazirliyi insan resursları sahəsində işini müasir tələblərə uyğun qurmağa çalışır. Kadr hazırlığı və ixtisasartırma ilə bağlı mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi, idarəetmə sisteminin elektronlaşdırılması, işə qəbul prosesinin şəffaflaşdırılması, peşə etikasına əməletmə səviyyəsinin yüksəldilməsi prioritet vəzifələr sırasındadır. Ümumilikdə, məqsəd vergi orqanlarının yüksək hazırlıqlı, məsuliyyətli, təşəbbüskar, innovativ yeniliklərə meyilli, kreativ düşüncəli kadrlar hesabına komplektləşdirilməsi yolu ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsidir.

Xüsusi vurğulamaq lazımdır ki, nazirliyin İnsan resursları idarəsi bu sahə üzrə strategiya, siyasət və qaydaların müəyyənləşdirilməsi; insan resurslarının idarə edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilərək tətbiqi; vergi orqanlarında kadrlara tələbatın dəqiqləşdirilərək işə qəbulla bağlı müsabiqənin keçirilməsi üçün təkliflərin verilməsi; işə qəbul prosesinin təşkili və uğur qazanmış namizədlərin işlə təmin edilməsi; müvafiq qanunvericilik əsasında vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyasının aparılması və nümunəvi peşə etikasına riayət edilməsinə nail olunması istiqamətində davamlı iş aparır.

***- 2013-cü ildə bu istiqamətdə konkret olaraq nə kimi tədbirlər həyata keçirilmişdir?***

- Vergilər Nazirliyinin 2013-cü il üçün illik tədris (təlim) qrafikinə əsasən, ötən il vergi orqanı əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi məqsədilə bir sıra tədbirlər, o cümlədən üç ilkin hazırlıq kursu təşkil edilmişdir. Qrafikə əsasən, «Dövlət vergi orqanlarında operativ vergi nəzarəti işlərinin təşkili», «Dövlət vergi orqanlarında qeydiyyat və uçot işlərinin təşkili», «Dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət işinin təşkili», «Dövlət vergi orqanlarında kargüzarlıq və koordinasiya işlərinin təşkili» və digər aktual mövzularda keçirilmiş 23 təlim və 28 ixtisasartırma kursunda vergi orqanlarının 1190 əməkdaşının iştirakı təmin edilmişdir. İdarənin rəhbər heyəti ilkin və ixtisasartırma kurslarının yekunu üzrə keçirilən imtahanların gedişinə ciddi nəzarəti təmin etmişdir.

Vergi orqanı əməkdaşlarının müxtəlif dövlət qurumlarının, ali təhsil müəssisələrinin dəstəyi ilə keçirilən konfrans, treninq və seminarlarda iştirakı da peşə hazırlığının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. 2013-cü ildə Azərbaycan Diplomatiya Akademiyasının, Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın təşkil etdiyi bu cür tədbirlərdə nazirliyin əməkdaşları fəal iştirak etmişlər. Məsələn, nazirliyin səkkiz əməkdaşı Maliyyə Elm-Tədris Mərkəzində «Mühasibat uçotunun təşkilində Azərbaycan Respublikası qanunvericiliyinin və vergilərin rolu», «Büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları», «Beynəlxalq mühasibat uçotunun əsasları» mövzuları üzrə ixtisasartırma kurslarında iştirak etmişdir.

***- Kadrların peşəkarlığının artırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, əcnəbi ekspertlərin iştirakı ilə keçirilən treninq və seminarlar barədə bir neçə kəlmə deyərdiniz...***

- İnsan resurslarının inkişafı və idarə edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi son illərdə nazirliyin fəaliyyətində mühüm yer tutur. Ötən illərdə formalaşmış müsbət ənənə əsasında vergi xidməti əməkdaşları beynəlxalq səviyyəli kurslara, seminarlara, treninqlərə göndərilirlər. Paralel olaraq Azərbaycanda təşkil olunan treninq və kurslara dünyanın insan resursları sahəsində ixtisaslaşmış peşəkar ekspertləri dəvət edilirlər. Məsələn, 2013-cü il aprelin 8-dən 12-dək keçirilmiş «İnsan resurslarının inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, dünya praktikası və onun ən qabaqcıl nümunələrinin tətbiq edilməsi» mövzusunda beş günlük təlim kursunda vergi orqanlarının 23 əməkdaşı iştirak etmişdir.

Nazirliyin təlimçiləri üçün kursun keçirilməsi barədə vergilər nazirinin 19 mart 2013-cü il tarixli əmrinə müvafiq olaraq ötən il mayın 14-dən 16-dək Avstriya Federal Maliyyə Akademiyasının və yerli ekspertlərin iştirakı ilə təşkil olunmuş üç günlik təlim kursunda nazirliyin funksional struktur bölmələrinin 43 əməkdaşı iştirak etmişdir.

*Nazirliyin strukturlarının və işçilərin fəaliyyətinin qiymətləndirilməsi üzrə avtomatlaşdırılmış sistem vasitəsilə yekun «e-hesabat» formaları təkmilləşdiriləcək*

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Polşa Respublikasının Baş Nazirinin Dəftərxanası yanında Dövlət Qulluğu İdarəsi və Polşa Respublikasının Dövlət İdarəçilik Milli Məktəbinin birgə təşəbbüsü ilə oktyabrın 21-dən 25-dək Varşava şəhərində keçirilmiş «Dövlət qulluğu: qaydalar, institutlar, təcrübələr» mövzusunda treninqdə idarəmizin əməkdaşı iştirak etmişdir.

***- «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» ilə bağlı İnsan resursları idarəsi hansı işləri yerinə yetirir?***

- «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında hazırlanmış strategiya yaxın və ortamüddətli perspektivdə nazirliyin müxtəlif istiqamətlər üzrə fəaliyyət prioritetlərini və əsas hədəflərini müəyyən edir. Strategiyada bir sıra sahələrlə yanaşı, insan resurslarının inkişafı, kadr hazırlığının yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr dolğun şəkildə əksini tapmışdır.

Sənəddə qeyd olunmuşdur ki, qarşıdakı illərdə vergi inzibatçılığında idarəetmənin səmərəliliyinin artırılması ilə bağlı strateji məqsədlərə nail olmaq üçün işçilərin fəaliyyətinin qiymətləndirilməsinin obyektivlik dərəcəsinin yüksəldilməsi, qiymətləndirmənin avtomatlaşdırılması nəzərdə tutulur. Eləcə də nazirliyin strukturlarının və işçilərin fəaliyyətinin qiymətləndirilməsi üzrə avtomatlaşdırılmış sistem vasitəsilə menecerlərə təqdim olunan yekun «e-hesabat» formaları təkmilləşdiriləcək.

Tədris və təlim prosesində vergi orqanları əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində müasir informasiya texnologiyalarından istifadəyə üstünlük veriləcəkdir. Strategiyaya əsasən, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə keçirilən treninqlərdə vergi orqanları əməkdaşlarının geniş iştirakı təmin olunacaqdır. Bundan başqa, sənəd çərçivəsində vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi-tədqiqat və araşdırma işlərinin genişləndirilməsi, Vergilər Nazirliyinin Tədris Mərkəzinin bazasında Regional Təlim və Tədqiqat Mərkəzinin yaradılması, əməkdaşların peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiqi istiqamətində işlər davam etdiriləcək. Əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi məqsədilə müasir informasiya texnologiyalarından istifadə yolu ilə beynəlxalq təlim metodlarının tətbiqi də nəzərdə tutulmuşdur.

***- «Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»nın imzalanması hansı zərurətlə şərtlənir?***

- «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»na əsasən, Azərbaycanın iqtisadi inkişaf hədəflərinə nail olmaq üçün mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşdırılması işi davam etdirilməlidir. Belə bir sistemin yaradılması, ilk növbədə, insan resurslarının idarəedilməsi üzrə mövcud mexanizmin təkmilləşdirilməsini zəruri edir. «Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»nın hazırlanması və təsdiq olunması da məhz bu zərurətdən irəli gəlir.

Tədbirlər Planında insan resurslarının inkişafı ilə bağlı nəzərdə tutulmuş işlərin əlaqələndirilməsi bizim idarəyə tapşırılmışdır. Nazirliyin aidiyyəti struktur və bölmələrinin rəhbərlərinə Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrası ilə bağlı hər altı aydan bir (növbəti ayın 20-dən gec olmamaqla) İnsan resursları idarəsinə məlumat vermək tapşırılmışdır. İdarə 2015-ci il fevralın 20-dək bu sahədə görülmüş işlər üzrə yekun hesabat hazırlayaraq vergilər nazirinə təqdim edəcəkdir.

«Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»nda ümumilikdə altı istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. İl ərzində vergi sistemi üzrə vəzifə təlimatlarının hazırlanması, insan resurslarının idarə edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, əməkdaşların peşəkarlıq səviyyəsinin, habelə peşə etikasına əməletmə səviyyəsinin yüksəldilməsi, orta menecerlərlə işin təkmiləşdirilməsi, işə qəbul prosesinin daha da şəffaf mexanizmlər əsasında həyata keçirilməsi ilə bağlı tədbirlərin icrası nəzərdə tutulmuşdur.

Hesab edirəm ki, Tədbirlər Planı əsasında reallaşdırılacaq işlər vergi orqanlarında insan resurslarının inkişafına, kadrların bilik və bacarıqlarının, peşə vərdişlərinin yüksəldilməsinə yeni təkan olacaqdır.

**Samir MUSTAFAYEV**

Vergi ödəyicilərinin nəzərinə!

31 yanvar 2014-cü il tarixədək
muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin illik bəyannaməsi vergi orqanına təqdim olunmalıdır.

Azərbaycan Respublikası Vergilər Nazirliyi
www.taxes.gov.az • www.e-taxes.gov.az



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Rakurs

# Vergilərin müəyyən edilməsi

Yarandığı ilk dövrdən verginin hansı məbləğdə və kimlər tərəfindən ödənilməsi məsələsinin əvvəlcədən müəyyənləşdirilməsi vergilərin yığılmasını şərtləndirən əsas amillərdən olmuşdur. Vergilərin tənzimlənməsi ilə bağlı dövlətin qəbul etdiyi qanunlarda da hər bir verginin dəqiq müəyyən olunması ən vacib şərt sayılmışdır. Bununla əlaqədar istənilən dövlətin vergi qanunvericiliyində ilk növbədə vergitutmanın hər bir elementini tənzimləyən zəruri normalar nəzərdə tutulur. Vergitutmanın elementlərinə vergi ödəyicisi, vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanması, ödənilməsi qaydası və müddəti aid edilir.

Qanuna əsasən, Azərbaycan Respublikasının vergiləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir. Onların dəyişdirilməsi və ya ləğv edilməsi Vergi Məcəlləsinə müvafiq dəyişiklik edilməklə həyata keçirilir. Heç bir şəxsin üzərinə Vergi Məcəlləsi ilə müəyyən edilməyən, yaxud bu Məcəllə ilə təsbit olunan qaydalardan fərqli şəklildə müəyyənləşdirilən vergiləri ödəmək vəzifəsi qoyula bilməz. Məcəlləyə əsasən, verginin müəyyən edilməsi o deməkdir ki, vergitutmanın yuxarıda qeyd olunmuş bütün elementləri qanunvericiliyə uyğun olsun.

Vergilərin müəyyən edilməsinin ən vacib elementlərindən biri hər verginin ödəyicisi olan şəxslərin konkret müəyyənləşdirilməsidir. Azərbaycanda tətbiq olunan vergilərin ödəyicisi sayılan şəxslər Vergi Məcəlləsi ilə müəyyən olunur. Məcəlləyə əsasən, vergi ödəyicisi dedikdə, qanunvericiliklə müəyyən olunmuş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən fiziki və ya hüquqi şəxs, qeyri-rezidentin daimi nümayəndəliyi, filialı və digər bölməsi nəzərdə tutulur.

*Heç bir şəxsin üzərinə Vergi Məcəlləsi ilə müəyyən edilməyən, yaxud bu Məcəllə ilə təsbit olunan qaydalardan fərqli şəklildə müəyyənləşdirilən vergiləri ödəmək vəzifəsi qoyula bilməz*

Vergitutma obyektinə gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri və s. aid edilir. Vergi Məcəlləsində hər bir verginin vergitutma obyekti göstərilmişdir. Misal üçün, aksizlər üzrə vergitutma obyekti istehsal olunan aksizli malların istehsal binasından və idxal olunan aksizli malların gömrük nəzarətindən çıxarılması, yol vergisi üzrə vergitutma obyekti avtomobil nəqliyyatı vasitələri sayılır. Vergitutma obyektinin müəyyən olunması verginin hesabalanmasını şərtləndirən əsas amillərdəndir. Şəxsin əmlak vergisinin ödəyicisi olması üçün onun mülkiyyətində əmlakı olmalı, yaxud mədən vergisinin ödəyicisi olmaq üçün vergi ödəyicisi tərəfindən faydalı qazıntıların çıxarılması fəaliyyəti həyata kerçirilməlidir.

Vergitutma obyekti ilə yanaşı, Vergi Məcəlləsində hər bir vergi növü üzrə vergitutma bazası da müəyyən olunmuşdur. Vergitutm bazası vergitutma obyektinin vergi hesablanan hissəsinin kəmiyyətcə ifadəsi deməkdir. Mənfəət vergisində vergitutma obyekti gəlir və xərc arasındakı fərqlə: yəni ümumi mənfəət olsa da, vergitutma bazası (vergi hesablanan mənfəət) mənfəətin ümumi məbləğindən güzəşt və azadolmalar çıxılmaqla müəyyən olunur. Fiziki şəxslərin gəlir vergisində işçiyə hesablanmış əməkhaqqının ümumi məbləği gəlir vergisinin vergitutma obyektini, əməkhaqqının ümumi məbləği ilə onun vergidən azad olunan məbləğləri arasındakı fərq isə vergitutma bazasını təşkil edir.

Vergi dövrü dedikdə, vergitutma bazasının formalaşdığı elə bir dövr nəzərdə tutulur ki, həmin müddət ərzində vergitutma bazası formalaşır və onun da əsasında vergi hesablanaraq dövlət büdcəsinə köçürülür. Misal üçün, ƏDV üzrə hesabat dövrü təqvim ayı, mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Bu da o deməkdir ki, ƏDV hesabat ayı ərzində aparılan vergitutulan əməliyyatlardan, mənfəət vergisi hesabat ilinə aid edilən gəlir və xərclər arasındakı fərqdən hesablanır.

Vergitutmanın ən vacib elementlərindən biri də vergi dərəcəsidir. Verginin dərəcəsi vergitutma bazasının hər bir vahidinə düşən vergi məbləğini müəyyən edir. Beynəlxalq təcrübədə vergi dərəcələri həm faiz, həm də kəmiyyət şəklində tətbiq olunur.

Verginin hesablanması qaydası dedikdə, konkret götürülmüş hesabat dövrü üzrə vergitutma bazasına vergi dərəcəsi tətbiq olunmaqla vergi məbləğinin hesablanması və vergi güzəştləri, azadolmaları nəzərə alınmaqla büdcəyə ödənilməli olan vergi məbləğinin müəyyənləşdirilməsi nəzərdə tutulur. Verginin hesablanması müvafiq vergi növü üzrə vergi hesabatının (vergi bəyannaməsinin) tərtib edilməsi və vergi orqanına təqdim olunması ilə nəticələnir. Fiziki şəxslərin əmlak və torpaq vergiləri isə bələdiyyələr tərəfindən tədiyyə bildirişləri tərtib olunmaqla hesablanır.

Vergi Məcəlləsində vergilərin ödənilməsi qaydası və onların hər birinin ödənilmə müddəti, qanunla müəyyən edilmiş hallarda vergilərin digər şəxs tərəfindən ödənilməsi, verginin hesablanması haqqında bildirişdə verginin ödənilməsinə dair tələbin və ödəmənin müddətlərinin göstərilməsi, vergi öhdəliyinin yerinə yetirilməsi müddətlərinin dəyişdirilməsi, vergilərin ödənildiyi yer və s. müəyyən edilmişdir.

Məcəlləyə əsasən, həmçinin, vergilər müəyyən olunarkən qanunvericilikdə nəzərdə tutulan əsaslarla vergi güzəştləri də verilə bilər. Lakin bu, verginin müəyyən olunmasının əsas elementlərinə aid edilmir.

Vergi güzəştlərinin verilməsi isə ilk növbədə vergi ödəyicilərinin bəzi kateqoriyalarının və ya fəaliyyət sahələrinin vergilərdən tam və ya qismən azad olunmasını nəzərdə tutaraq, müvafiq fəaliyyət sahəsində baş verən iqtisadi və sosial proseslərin tənzimlənməsinə yönəldilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2013-cü ildə...**

- Məhsula və idxala xalis vergilər ÜDM-in **6,4%-ni** təşkil etmişdir.
- Əhalinin gəlirləri **37,6 milyard manata** çatmış, hər nəfərə düşən gəlirlərin həcmi orta hesabla **4039,6 manat** təşkil etmişdir.
- Gəlirlərin **64,3%-i** son istehlaka, **8,3%-i** vergilər, sosial sığorta və üzvlük haqlarının, **1,8%-i** kreditlər üzrə faizlərin ödənilməsinə, **25,6%-i** isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir.



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Növbədənkənar səyyar vergi yoxlaması

**Növbədənkənar səyyar vergi yoxlaması hansı müddətdə keçirilir və bu yoxlama əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxslərə həvalə edilə bilərmi?**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - VM) 38.1-ci maddəsinə görə, səyyar vergi yoxlaması vergi orqanının qərarı əsasında həyata keçirilir. Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması keçirildikdə vergi orqanı tərəfindən vergi ödəyicisinə yoxlamanın başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilir. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir. VM-in 38.2-ci maddəsi ilə müəyyən edilmişdir ki, səyyar vergi yoxlaması 30 gündən artıq davam edə bilməz. Müstəsna hallarda, yuxarı vergi orqanının qərarına müvafiq olaraq, səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 günə qədər artırıla bilər.

Bu müddəa növbədənkənar səyyar vergi yoxlamasına da aid edilir. Başqa sözlə, səyyar vergi yoxlamasının bir növü olan növbədənkənar səyyar vergi yoxlaması 30 gündən artıq davam edə bilməz. Müstəsna hallarda, yuxarı vergi orqanının qərarına müvafiq olaraq, növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 günə qədər artırıla bilər. Növbədənkənar səyyar vergi yoxlaması keçirildikdə vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanması barədə bildiriş göndərilmir. Səyyar vergi yoxlaması iş günü və vergi ödəyicisinin iş vaxtı ərzində keçirilir.

Növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsi halları VM-in 38.3-cü maddəsində müəyyən edilmişdir. Həmin maddədə qeyd edilmiş hallar mövcud olduqda vergi ödəyicisində növbədənkənar səyyar vergi yoxlaması keçirilə bilər. Növbədənkənar səyyar vergi yoxlaması vergi orqanının həm əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən, həm də vergi orqanının buna səlahiyyəti olan digər vəzifəli şəxsləri tərəfindən həyata keçirilə bilər. Lakin bu zaman VM-in 38.3.9-cu maddəsi istisna hal kimi müəyyən edilmişdir. Bu maddənin tələblərinə əsasən, vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə, həmin vergi ödəyicisində növbədənkənar səyyar vergi yoxlaması vergi orqanının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən aparıla bilməz.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya s.musayeva@taxes.gov.az elektron poçt ünvanına göndərə bilərsiniz.

# Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

*2013-cü ildə «Vergi partnyorluğu sazişi»nin, əmək müqaviləsinin və nağdsız ödənişlərin üstünlükləri barədə vergi ödəyiciləri arasında geniş izahat işləri aparılıb*

*İdarəçilikdə innovativ yeniliklərin, informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqinə geniş yer verən Vergilər Nazirliyi 2013-cü ildə vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirib. Bu tədbirlər həm də «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında Vergilər Nazirliyində hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da əksini tapmış məsələlərin reallaşdırılmasına xidmət edib.*

**Xidmətdə innovativ yeniliklərə üstünlük verilir**

Həmin tədbirlərə vergi ödəyicilərinə xidmət mərkəzləri şəbəkəsinin və onların funksiyalarının, habelə «Vergi dostları» şəbəkəsinin genişləndirilməsi; vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq sazişinin imzalanmasının təşviqi, müasir informasiya sistemlərinin tətbiqi vasitəsilə vergi ödəyicilərinə göstərilən e-xidmətlərin genişləndirilməsi; vergi ödəyiciləri ilə birbaşa təmasda olan bütün vergi orqanlarında, habelə xidmət mərkəzlərində müasir avadanlıqların quraşdırılması və digər məsələlər daxildir.

Vergi ödəyicilərinin davamlı şəkildə məlumatlandırılması, elektron xidmətlərin tətbiq dairəsinin genişləndirilməsi və digər islahatlar ölkədə əlverişli biznes mühitinin formalaşdırılması tədbirlərinin mühüm tərkib hissəsi kimi diqqəti çəkir. 2013-cü ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə əlaqədar geniş məlumatlandırma və izahat işləri aparılıb, vergi ödəyiciləri ilə mütəmadi görüşlər keçirilib. Məcəllənin yeni versiyası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilib.

Müasir avadanlıq və yeni texnologiyarla təchiz edilmiş xidmət mərkəzlərində vergi ödəyicilərinə müasir standartlar səviyyəsində vergi xidmətlərinin göstərilməsi təmin edilib. 2013-cü ildə vergi ödəyicilərinə xidmət strukturlarında 278 min 295 vergi ödəyicisi qəbul edilib, onlara 599.056 sayda müxtəlif növ vergi xidmətləri göstərilib. Bu göstərici 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 28,6% çoxdur. 2013-cü ilin noyabr ayından xidmət mərkəzlərində vergi ödəyicilərinin yazılı (kağız daşıyıcıların-da) müraciətlərinin qəbuluna və həzır sənədlərin təhvil verilməsi xidmətlərinin göstərilməsinə başlanılıb. Ötən dövr ərzində vergi ödəyicilərinin 10.067 sayda kağız daşıyıcısında müraciətləri qəbul edilib, 7468 hazır sənəd isə təhvil verilib.




**Vergi ödəyicilərinə 124 növ xidmət göstərilir**

Ötən il «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» hazırlanaraq vergilər nazirinin 2013-cü il 11 iyul tarixli əmri ilə təsdiq edilib. Sənədlə vergi ödəyicilərinə xidmətlərin göstərilməsi meyarları, bu işi həyata keçirən mərkəzlərin və vergi orqanı əməkdaşının davranış və ünsiyyətinə dair ümumi tələb və normalar təsdiq olunub. Ümumilikdə, sənədlə vergi ödəyicilərinə 124 adda xidmətin göstərilməsi müəyyən edilib.

İl ərzində vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi tədbirləri də diqqət mərkəzində saxlanılıb. 2013-cü ildə vergi ödəyiciləri ilə 840 görüş, brifinq və seminar-məşğələ keçirilib. Bələdiyyələrin vergi xidməti əməkdaşları ilə 593 seminar-məşğələ, tədris müəssisələrində şagird və tələbələrlə vergilər mövzusunda 559 tədbir təşkil olunub. 12.588 vergi ödəyicisinə ünvanlı (səyyar) məlumatlandırma xidməti göstərilib. Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə vergilərə aid 14 adda kiçik həcmli bukletlər, kitabçalar, jurnallar 146 min 800 sayda nəşr etdirilib və vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülüb.

**«Vergi partnyorluğu sazişi»nin əhəmiyyəti izah edilir**

2013-cü il yanvarın 1-dən Vergi Məcəlləsində əksini tapmış «Vergi parnyorluğu sazişi»nin əhəmiyyətinin və üstünlüklərinin vergi ödəyicilərinə geniş izah edilməsi istiqamətində mühüm tədbirlər görülüb. Bununla bağlı ötən il ümumilikdə 191 min 277 vergi ödəyicisinin elektron qutusuna bildirişlər göndərilib. Bu mövzuda vergi ödəyiciləri ilə 202 görüş keçirilib, 1102 vergi ödəyicisinə ünvanlı xidmət göstərilib, KİV-də elan və bildirişlər verilib.

Əmək müqavilələrinin bağlanılmasının, nağdsız ödənişlərin üstünlüklərinin izahı istiqamətində əvvəlki illərdən başlanmış təbliğat-təşviqat kampaniyası 2013-cü ildə də davam etdirilib. «Bakı Taksi MMC» ilə əldə edilmiş razılaşmaya əsasən, «London taksiləri»ndə əmək müqavilələrinin bağlanmasının və nağdsız ödənişlərin üstünlükləri, plastik kartlardan istifadə barədə reklamların yerləşdirilməsi təmin edilib. Bunqdan başqa, «İTE Group» şirkəti tərəfindən respublikada təşkil olunan müxtəlif yönümlü 7 sərgidə Vergilər Nazirliyinin fəaliyyəti üzrə təbliğat işi təşkil edilib.

Hesabat dövründə, həmçinin, vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi öhdəliklərinin yerinə yetirilməsi, o cümlədən vergi bəyannamələrinin vaxtında təqdim edilməsi, vergilərə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi məqsədilə geniş məlumatlandırma və izahat tədbirləri həyata keçirilib. Bəyannamələrin tərtib edilməsinə kömək məqsədilə seminarlar təşkil olunub və bu sahədə vergi ödəyiciləri arasında təbliğat işləri aparılıb. Nəticədə 2013-cü ildə respublika üzrə mənfəət və gəlir vergisi bəyannaməsini təqdim etməli olan 15.208 vergi ödəyicisindən 14.560-ı və ya 95,7%-i bəyannaməni vaxtında təqdim edib. Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan illik vergi bəyannaməsini vaxtında təqdim etmiş vergi ödəyicilərinin sayı isə 96,2% təşkil edib.

**S.MUSTAFAYEV**

*(davamı növbəti sayımızda)*

(davamı növbəti sayımızda)

# Daşınmaz əmlak üzərində mülkiyyət hüquqları

*Əmlak Məsələləri Dövlət Komitəsindən verilən məlumata görə, 2013-cü ildə dövlət əmlakının özəlləşdirilməsi və idarə edilməsi, daşınmaz əmlak üzərində hüquqların qeydiyyat sisteminin inkişaf etdirilməsi, daşınmaz əmlakın vahid dövlət kadastrı, ünvan reyestrinin aparılması, elektron xidmətlərin təşkili ilə bağlı 40-a yaxın normativ-hüquqi aktın layihəsi hazırlanmışdır.*



Hesabat ilində respublika üzrə 177120-ə yaxın daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınmışdır. Bunlardan 497130-dan çoxu ilkin, 127410-a yaxını isə təkrar qeydiyyat olmuşdur. Bununla yanaşı, hesabat müddətində 40510-dan çox ipoteka müqaviləsi, 3065-ə qədər yüklülük dövlət qeydiyyatına alınmışdır. 2013-cü ildə 156220-yə yaxın daşınmaz əmlakın, o cümlədən torpaq sahələrinin texniki inventarlaşdırılması aparılaraq texniki pasport və plan-cizgi tərtib edilmişdir.

Ötən il Azərbaycanda ünvan reyestri sisteminin təkmilləşdirilməsi üzrə beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi davam etdirilmiş, «Azərbaycanda Ünvan Reyestrinin İnformasiya Sistemi» yaradılmış, ünvan məlumatlarının həmin sistemə inteqrasiya edilməsi istiqamətində müvafiq işlərin icrası davam etdirilmişdir.

«Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları»nda dəyişikliklər edilməsi barədə» ölkə başçısının müvafiq fərmanının icrası ilə əlaqədar Bakı şəhəri üzrə nəqliyyat infrastrukturu obyektlərinin ünvanlarının müəyyənləşdirilməsi işlərinin icrası da davam etdirilmişdir. Bakı şəhəri üzrə 1235-ə yaxın küçə və prospektə ünvan təyin edilmiş, 70-ə yaxın küçə və prospektin daxili ünvanları müəyyənləşdirilmişdir.

Hesabat ilində Əmlak Məsələləri Dövlət Komitəsinin «Elektron Xidmətlər Portalı» (www.e-emdk.gov.az) yaradılmış, komitə tərəfindən göstərilən elektron xidmətlər vahid məkanda istifadəyə verilmişdir. İl ərzində komitənin fəaliyyət istiqamətləri üzrə elektron xidmətlər vasitəsilə hüquqi və fiziki şəxslər tərəfindən 6920-yə yaxın müraciət daxil olmuş, bunlardan 6835-i icra edilmişdir. Bütövlükdə həmin elektron xidmətlər üzrə 8570-ə yaxın müraciət daxil olmuşdur.

Ötən il dövlət əmlakının qorunub saxlanılması və ondan səmərəli istifadə edilməsi, habelə dövlət və özəlləşdirilən müəssisələrin yerləşdiyi torpaq sahəsinin zəbt olunması və qanunsuz istifadə hallarının aşkar edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə komitənin sərəncamında olan dövlət müəssisə və obyektlərində 2736 monitorinq keçirilmiş və müvafiq arayışlar tərtib edilərək təhlil olunmuşdur. Dövlət əmlakının özəlləşdirilməsi, icarəyə verilməsi, balansdan-balansa verilməsi, texniki pasportların hazırlanması və s. ilə əlaqədar dövlət əmlakının registrindən 4200-dən çox çıxarış hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Komitədən bildirilir ki, dövlət təşkilatlarının yerləşdirilməsi və digər məsələlər ilə bağlı 200-dən çox müraciət və müvafiq tapşırıqlar daxil olmuşdur. İl boyunca ümumilikdə kiçik özəlləşdirmə formasında 700-ə yaxın dövlət müəssisə və obyekti, 720-dən çox obyektin yerləşdiyi torpaq sahəsi özəlləşdirilmiş, 650-dən çox qeyri-yaşayış sahəsi icarəyə verilmişdir. Əvvəllər bağlanılmış və müqavilə müddəti başa çatmış 720-dən çox obyekt üzrə icarə müqaviləsinin müddəti uzadılmış, 260-dan çox icarə müqaviləsi ləğv edilmişdir.

2013-cü ildə dövlət əmlakının qorunub saxlanılması, zəbt edilməsinin qarşısının alınması və səmərəsiz istifadə edilməsi, özəlləşdirilməsi, icarəyə verilməsi və daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı ilə bağlı 9700-ə yaxın məhkəmə prosesi keçirilmiş, 1300-ə yaxın apelyasiya şikayəti, 520-dən çox kassasiya şikayəti hazırlanmışdır.

**AYTƏN**

# Sahibkarlarla görüş

*Yanvarın 24-də Bakı Şəhər Vergilər Departamentində sahibkarların ictimai təşkilatlarının nümayəndələri və özəl vergi məsləhəti xidməti göstərən vergi ödəyicilərinin iştirakı ilə Vergi Məcəlləsində edilmiş dəyişikliklər, tətbiq olunan yeni elektron xidmətlərlə bağlı tədbir keçirilmişdir.*

Tədbirin məqsədi sahibkarları 2014-cü ildən qüvvəyə minən yeniliklərlə yaxından tanış etmək olmuşdur. Departamentin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elman Dadaşov bildirmişdir ki, ölkə iqtisadiyyatında gedən inkişaf prosesləri bu sahədə qanunvericiliyə müəyyən dəyişikliklər edilməsi zərurətini yaratmışdır. Vergi Məcəlləsinin 164.1.8 maddəsinə uyğun olaraq, Azərbaycanda ümumtəhsil müəssisələri üçün dərslik komplektləri (iş dəftərləri istisna olmaqla) və uşaq ədəbiyyatı istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti 2014-cü il yanvarın 1-dən vergidən azad edilmişdir. Məcəllənin 165.1.2 maddəsinə əsasən, Azərbaycanın xarici ölkələrdəki diplomatik xidmət orqanlarında işləyən və bu orqanlarda material-texniki təminat sahəsində öhdəliklərini yerinə yetirən şəxslərə gəlir vergisi üzrə güzəşt və azadetmələr şamil olunmuşdur. Həmçinin körpələr evləri, körpələr evləri-uşaq bağçaları və uşaq evləri 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilmişdir. Bundan başqa, banklar və kredit təşkilatları tərəfindən əhalinin əmanətləri üzrə ödənilən faiz gəlirləri növbəti 1 ildə də gəlir vergisindən azad olunmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisinin, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad edilmişdir. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslər yanvarın 1-dən 5 il müddətinə əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməyəcəklər. Bu şəxslər digər fəaliyyət növləri ilə məşğul olduqda, Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq, həmin fəaliyyət üzrə vergiyə cəlb edilirlər.

Tədbirdə Vergilər Nazirliyinin tətbiq etdiyi elektron xidmətlər barədə də məlumat verilmişdir. Bildirilmişdir ki, Bakı şəhəri, M.Qaşqay küçəsi 56 ünvanda istifadəyə verilmiş yeni, müasir tipli Vergi ödəyicilərinə xidmət mərkəzi texniki imkanlarına, ödəyicilərə xidmətlərin mərkəzləşdirilmiş və operativ şəkildə göstərilməsinə, onların rahatlığının təmin edilməsinə görə fərqlənir. Müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmiş mərkəzdə vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, vergi ödəyicilərinə şəxsi vərəqələrindəki məlumatlara baxış imkanı yaradılır, vergi bəyannamələri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə dövlət qeydiyyatına alınması ilə bağlı geniş spektrdə xidmətlər göstərilir.

**ELBRUS**

# İnsan kapitalının inkişafına daha çox vəsait cəlb ediləcək

Keçən ilin maraqlı hadisələrindən biri də Dünya İqtisadi Forumunun yeni reytinq indeksini - «İnsan Kapitalı İndeksi»ni (Human Capital Index) müəyyənləşdirməsi oldu. Bu indeks ölkələrin öz insan ehtiyatlarından nə dərəcədə səmərəli istifadə etməsini dəyərləndirir. Onun əsasında ölkələrin sağlam, təhsilli və ixtisaslı məhsuldar qüvvələr və ya əməkçilər yetişdirmək qabiliyyəti dayanır. Burada dörd başlıca faktora diqqət yetirilib: təhsil; sağlamlıq və səhiyyə; işçi qüvvəsi və məşğulluq; sağlam iş mühiti.

Bu reytinq indeksi üzrə İsveçrə bir nömrəli ölkə hesab olunub. Sonrakı yerləri isə Finlandiya və Sinqapur tutub. Birinci onluğa daxil olan ölkələrin qalanı Şimali Avropadadır.

İndeksə daxil edilmiş 122 ölkə Şimali Amerikanı, Asiya və Yaxın Şərqi əhatə edir. Bu reytinqdə Kanada 10-cu, Yaponiya 15-ci, ABŞ 16-cı yerdədir. İlk 20-liyə Yaxın Şərqdən yalnız Qətər (18) daxil ola bilib. Çin 43-cü, Rusiya 51-ci, Braziliya 57-ci, Hindistan 78-ci, Cənubi Afrika Respublikası 86-cı yeri tutur. Aşağı reytinqli ölkələr Misir (111), Pakistan (112), Nigeriya (114) və Yəməndir (122). Reytinq göstərir ki, hətta Avropanın özü insan ehtiyatlarından səmərəli istifadəyə görə ikiyə bölünüb. Şimali Avropa Şərqi və Cənubi Avropa ilə müqayisədə daha üstün göstəricilərə malikdir.

İndeksin necə hesablandığını başa düşmək üçün, məsələn, 29-cu yeri tutan İspaniyanın göstəricilərinə baxmaq kifayətdir. Bu ölkə «Sağlamlıq və səhiyyə» qrafasında 12-ci yerdə olduğu halda, «İşçi qüvvəsi və məşğulluq» qrafasında 70-ci yeri tutub. Buna baxmayaraq, İspaniya 37-ci yeri tutan İtaliyadan və 55-ci yerdəki Yunanıstandan irəlidədir. Kanada isə Şimali Amerikada ABŞ-dan qabağa ona görə keçə bilib ki, təhsil baxımından dünyada ikinci yerdədir.

Asiyaya gəlincə, burada Yaponiyadan sonrakı mövqeləri Malayziya (22), Koreya (23) və Çin (43) tuturlar. Yaxın Şərqdə Qətər yüksək yeri tutsa da, «Sağlamlıq və səhiyyə» göstəricisində geri qalır. Birləşmiş Ərəb Əmirlikləri 24-cü, İsrail 25-ci, Səudiyyə Ərəbistanı 39-cu, Bəhreyn 40-cı yerdədir.

> *«Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanlardır, onların biliyi, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik».*
>
> *İlham ƏLİYEV,*
> *Azərbaycan Respublikasının Prezidenti*

«İnsan Kapitalı İndeksi»ndə Azərbaycan dünya ölkələri sırasında sürətli irəliləyişə nail olmuş və 64-cü yeri tutmuşdur. Respublikamız təhsil göstəricisinə görə 71-ci; sağlamlıq göstəricisinə görə 94-cü; işçi qüvvəsi və məşğulluq göstəricilərinə görə 55-ci sıradadır. Beləliklə, ölkəmiz bu sahədə də Cənubi Qafqazda birincidir.

Dövlətimizin başçısı İlham Əliyev demişdir: «Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanlardır, onların biliyi, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik».

Dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» bu istiqamətdə aparılan işlərin daha da genişləndirilməsinə rəvac verir. Bu proqram insan inkişafı və əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edərək, dövlət başçısının 2005-ci il 26 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)»nın ikinci mərhələsinin reallaşdırılmasına yönəldilmişdir. Dövlət Proqramı işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını, səmərəli işgüzarlıq mühitinin formalaşmasını, struktur islahatlarının dərinləşdirilməsini, investisiya fəallığının daha da artırılmasını və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsini nəzərdə tutur. Sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsinin təmin edilməsi, peşə təhsilinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması məqsədi ilə bu sahədə ixtisas və ixtisaslaşma təsnifatının sadələşdirilməsi, daxili və xarici miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri önə çəkilir. Qeyri-neft sektorunun, xüsusilə aqrar, toxuculuq, emal müəssisələri və xidmət sahələrinin inkişafı hesabına yeni iş yerlərinin yaradılması, kənd yerlərində sosial və kommunal infrastrukturun inkişaf etdirilməsi yolu ilə əhalinin, xüsusilə gənclərin miqrasiya səviyyəsinin azaldılması da qarşıda duran mühüm vəzifələrdəndir.

Proqramda işçi qüvvəsinə tələbatın stimullaşdırılması və insan kapitalının inkişaf etdirilməsi sahəsində bir sıra məsələlərin reallaşdırılması nəzərdə tutulmuşdur. 2015-ci ilə kimi ölkəmizdə əmək bazarının tələblərini nəzərə alaraq rəqabət qabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi, iş yerində təhsilin davam etdirilməsi, insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlb edilməsi üçün imkanların müəyyənləşdirilməsi, beynəlxalq məşğulluq təsnifatına əsaslanan təkmilləşdirilmiş peşə təsnifatlarının, peşə və təlim standartlarının hazırlanması və s. tədbirlər həyata keçiriləcəkdir.

Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun inkişafı da sürətləndiriləcək. Eyni zamanda, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin ünvanlı dövlət sosial yardım sistemi ilə əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, o cümlədən işsizlərin və onların ailə üzvlərinin təhsil, tibbi və digər xidmətlərə çıxış imkanlarının genişləndirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi, sosial müdafiəyə xüsusi ehtiyacı olan əhali qrupları üçün yeni iş yerlərinin yaradılması, işsizlik müavinətinin minimum məbləğinin mərhələlərlə artırılması diqqət mərkəzində saxlanılacaq.

Dövlət Proqramına əsasən, Vergilər Nazirliyi qarşısında da bir sıra vəzifələr müəyyən olunmuşdur. Yerli icra hakimiyyəti orqanlarına, Dövlət Gömrük Komitəsinə, İqtisadiyyat və Sənaye, Vergilər nazirliklərinə respublikamızda yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması və xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlər həyata keçirilməsi tapşırılmışdır. Ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi istiqamətində Vergilər Nazirliyi tərəfindən Dövlət Proqramına uyğun konkret işlər yerinə yetirilir. Həmçinin, sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması üçün vergi ödəyicilərinə xidmət terminalları şəbəkəsinin genişləndirilməsi sahəsində də müvafiq qurumlarla birgə tədbirlər həyata keçirilməkdədir.

**Rəşad SADIQOV**




*Bu gün dünya ölkələrinin bir çoxunda «ƏDV-nin geri qaytarılması», başqa sözlə desək, «Tax Free» sistemi mövcuddur. «Tax Free»nin tətbiqi bu sistemin işlədiyi ölkəyə marağı daha da artırmaqla yanaşı, turist axınının çoxalmasına səbəb olur. Bu sistem mal alarkən ödənilmiş əlavə dəyər vergisinin həmin ölkənin gömrük sərhədlərindən çıxararkən alıcıya geri ödənilməsi şəklində tətbiq edilir.*

### «Tax free»nin tarixi

İlk «Tax free» İsveçdə yaranıb və hazırda Avropa Birliyinin, demək olar ki, bütün ölkələrində və onun hüdudlarından kənarda olan təxminən 20 dövlətdə mövcuddur. «Tax free» çekinin rəsmiləşdirilməsi ilə məşğul olan şirkətlərdən ən böyüyü GlobalBlue şirkətidir ki, 40 dövləti özündə birləşdirir. Şirkət 1980-ci ildə İsveçrədə yaranıb və GlobalRefundGroup korporasiyasına məxsusdur. Sonrakı iri qurum isə 1985-ci ildə İrlandiyada yaranan, TheFintraxGroupa daxil olan PremierTaxFree şirkətidir və özündə 21 dövləti əhatə edir. Bundan sonra isə 2003-cü ildə yaranan TaxFreeWorldwide (15 ölkə) və InnovaTaxFree (6 ölkə) şirkətləri gəlir.

### ƏDV-nin məbləği

ƏDV-nin qaytarılması şərtləri müxtəlif ölkələrdə dərəcələr və mal kateqoriyalarına görə həyata keçirilir. Hər bir ölkə verginin hansı mala görə hansı həcmdə qaytarılmasını özü müəyyənləşdirir. Bu xidmət yalnız xarici vətəndaşlar üçün nəzərdə tutulub. Dövlətdən asılı olaraq ƏDV-nin məbləği 7-20% arasında dəyişir.

Hər bir turist getdiyi ölkədə bu sistemin tətbiq edildiyini və onun minimal qayıdış məbləğinin nə qədər olduğunu öyrənməlidir. Məsələn, Avstriyada ƏDV-nin qaytarılması üçün alınan malın minimum məbləği 75 avro olmalıdır. Bu zaman ƏDV 10-20% olacaq. Belçikada minimum məbləğ 125 avro, ƏDV isə 21% təşkil edəcək.

ƏDV-nin qaytarılması üçün istənilən ticarət məntəqəsində deyil, «Tax Free» sistemi ilə işləyən və üzərində «Tax Free Shopping» loqotipi olan mağazada alış-veriş həyata keçirilməlidir.

### «Tax free»nin qaytarılması

«Tax free»nin rəsmiləşdirilməsi proseduru bir neçə mərhələdə həyata keçirilir. İlk olaraq mağazalarda edilən alış-veriş üçün satıcıdan «Tax free» formasını rəsmiləşdirməyi tələb etmək lazım gəlir. Bunun üçün turistin üzərində xarici pasportu olması kifayət edir. Diqqət etmək lazımdır ki, satıcı «Tax free» formasını düzgün rəsmiləşdirsin: «Tax free» formasında kassa çekində olan məbləğ, alınan malın siyahısı və məbləğləri qeyd edilməli, ƏDV-nin məbləği həmin anda müəyyən edilib yazılmalıdır. Diqqət etmək lazımdır ki, formanın vacib xanaları çap formasında, latın əlifbası ilə doldurulsun.

Növbəti addım isə gömrük məntəqəsində «Tax free» formasına möhür vurmaqla həyata keçirilir. Ölkəni tərk edərkən alınan mal və qəbzi xarici pasport ilə birgə gömrük məntəqəsinə təqdim etmək lazımdır. Diqqət etmək vacibdir ki, alınan mal mağazada möhürlənsin, üzərindəki bütün etiketlər və yarlıqlar saxlanılsın və ölkəni tərk edənədək açılmasın. Həmçinin kassa və «Tax free» çekləri də saxlanılmalıdır. Bütün bunlardan sonra gömrük məntəqəsində yoxlanışdan keçərkən «Tax free» çeklərinə möhür vurdurmaq lazımdır. Yalnız bundan sonra xarici vətəndaş aldığı malın dəyərinin konkret bir ölkədə müəyyən edilmiş faizini geri almaq hüququnu əldə etmiş olur. Pulu nağd və bank hesabına köçürülməklə almaq olar. Hər hansı bir yanlışlıq bu məbləğin ödənilməsindən imtina edilməsinə səbəb ola bilər.

### Problem yaşamamaq üçün...

Xarici vətəndaş pulu geri alarkən və ya başqa ölkəyə səyahət edərkən problem yaşamamaq üçün bəzi məqamlara xüsusi diqqət etməlidir. Məsələn, malın ölkəni tərk etmək müddəti var. Hər bir dövlətdə alınan malın ölkədən çıxarılma müddəti müəyyənləşib: bu, dövlətdən asılı olaraq 1 aydan 3 ayadəkdir. Həmin müddət ərzində alınan mal ölkədən çıxarılmalıdır, əks halda, mala görə ƏDV-nin qaytarılması real deyil. Diqqət edilməli digər bir məsələ isə ƏDV-nin qaytarılması üçün qəbzdə göstərilən məbləğin müəyyən olunmuş həcmdən aşağı olmamasıdır. Burada söhbət ayrıca malın dəyərindən deyil, yekun hesabdan gedir.

Bundan əlavə, bəzi brend mağazalar var ki, «Tax free»nin qaytarılmasını mal alındıqdan dərhal sonra həyata keçirmək hüququna malikdir. Bunun üçün xarici pasportu, bəzi hallarda isə aviabiletləri göstərmək lazım gəlir. Daha sonra isə gömrük məntəqələrində mütləq «Tax free» qəbzinə möhür vurulmalıdır. Əgər bu proses həyata keçirilməsə, həmin məbləğ şəxsin bank kartından silinir. Kartın balansı bu əməliyyatı həyata keçirməyə imkan verməsə və ya kartın nömrələri qeyd edilməmiş olsa, həmin şəxsin növbəti səfəri zamanı problemlər yarana bilər.

Onu da qeyd edək ki, xaricə səfər edən hər bir insan bütün bu şərtlərə əməl etməklə yanaşı, gözləmədiyi problem yaşamamaq üçün alış-veriş etdiyi mağazanın satıcısından «Tax free»nin qaytarılması proseduru barədə ətraflı məlumat almalıdır.

**AYTƏN**

# Aqrar-sənaye kompleksinin yeni inkişaf strategiyası

*«Sənaye ili» çərçivəsində Azərbaycan hökuməti yeyinti və emal sənayesinin inkişafına dair mühüm layihələr həyata keçirməyi planlaşdırır. Bu məqsədlə Azərbaycanın aqrar-sənaye kompleksinin inkişafı ilə bağlı strategiya hazırlanacaq. Ölkə başçısının tapşırığına əsasən, müvafiq dövlət qurumları prioritet istiqamətlər üzrə təkliflər hazırlayacaq.*

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Rizvan Mustafayevin sözlərinə görə, müasir iqtisadi inkişafın tələblərinə əsasən, Azərbaycanda güclü potensialı olan aqrar-sənaye sektorunun yenidən qurulması zəruridir. Hökumət müasir neftdənkənar iqtisadiyyatın əsas bölmələri kimi sənaye və aqrar-sənaye sahələrinə xüsusi diqqət yetirir, innovativ, elmtutumlu və rəqabətqabiliyyətli yeni modellərin yaradılması ilə bağlı tədbirlər görür. Sənayeləşmənin əsas şaxələrindən olan sənaye və aqrar texnoparkların yaradılması artıq bu siyasətin mühüm səmərə verdiyini təsdiqləyir. Bu istiqamətdə işləri davam etdirən hökumət aqrar-sənaye sektorunun yüksək inkişaf etdiyi ölkələrin müasir modellərindən faydalanmağı hədəf seçib.

Strateji inkişaf konsepsiyasına əsasən, ilk növbədə, aqrar-sənayenin strukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Sənədin detallarını müəyyən etmək üçün yerli icra strukturları və fermerlərin, sahibkarlıq subyektlərinin, yerli strukturların təklifləri nəzərə alınaraq Dövlət Proqramında istifadə olunacaq.

Aqrar-sənaye kompleksinin əsas istiqamətləri olan iri emal təsərrüfatları şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. Bu sektorda istehsalın intensiv inkişafının gücləndirilməsi məqsədilə fermer birlikləri təşkil olunacaq. Məhsulun emalı, tədarükü, son məhsul prosesinə qədər bütün mərhələlərin təşkili yeni və elmtutumlu texnologiyalara əsaslanacaq. Emal prosesinin ixrac bazarlarının tələblərinə uyğunlaşdırılması, emal müəssisələrinin istehsal güclərinin müasir texnologiyaların tətbiqi ilə artırılması və yeni yeyinti sənayesi müəssisələrinin yaradılması da əsas hədəflər sırasındadır.

R.Mustafayev qeyd etmişdir ki, bölgələrdə ən müasir texnologiyalar əsasında anbar komplekslərinin yaradılması kənd təsərrüfatının intensiv inkişafı, mövsümi qiymətlərin tənzimlənməsi, məhsul itkisinin qarşısının alınması, daxili bazarın qorunması və ixrac potensialının artırılması üçün həyata keçirilən ardıcıl tədbirlər davam etdiriləcək. Bu sahədə beynəlxalq təcrübə, xarici ölkələrin iri fermer təsərrüfatları ilə qarşılıqlı əməkdaşlıq, eləcə də modelləşdirmə seqmentləri nəzərə alınacaq, Avropa Birliyi ölkələrinin qabaqcıl təcrübəsinə, Dünya Bankının tövsiyələrinə istinad olunacaq.

İqtisadiyyat və Sənaye Nazirliyindən (İSN) verilən məlumata görə, aqrar-sənaye kompleksinin inkişaf strategiyasının həyata keçirilməsi üçün dövlət dəstəyi tədbirləri beynəlxalq təcrübəyə uyğun olaraq davam etdiriləcək. Bu məqsədlə əlavə tədbirlər həyata keçiriləcək, kənd təsərrüfatının sığortalanması mexanizmi təkmilləşdiriləcək, elə bir mühit yaradılacaq ki, özəl banklar və kredit təşkilatları bu sektora vəsait ayırmağa daha çox həvəs göstərsinlər. Layihə çərçivəsində aqrar sahəyə maliyyə dəstəyi və özəl bankların bu istiqamətdə kapitallaşmanı gücləndirməsi, yeni kredit və bank tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Proqnozlara görə, qarşıdakı 10 ildə aqrar sahəyə maliyyə dəstəyi üç dəfəyə yaxın artacaq. Maliyyələşmə siyasəti aqrar-sənaye sektorunda rəqabətliliyin təmin edilməsinə, yeni texnologiyalara çıxışın artırılmasına,



qida təhlükəsizliyinə zəmin yaradan avadanlıqların və proseslərin təkmilləşdirilməsinə və bazarlara çıxışın yaxşılaşdırılmasına, həmçinin məhsulun keyfiyyətinə dəstək verən, innovasiyalara yol açan investisiyalara imkan yaradacaq.

Aqrar-sənaye sektorunun inkişafı ilə bağlı prioritetlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsidir. Beynəlxalq standartlar əsasında milli standartların hazırlanması, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının stimullaşdırılması, həmçinin genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması üçün məqsədyönlü tədbirlər həyata keçiriləcək.

Dövlətin birbaşa dəstəyi ilə yanaşı, özəl qurumların təəbbüsü ilə ərzaq təminatının gücləndirilməsinə dair mikrolayihələrin həyata keçirilməsi planlaşdırılır. Başlıca məqsəd Azərbaycanda aqrar sektorda fəaliyyət göstərən, xüsusilə yüksək keyfiyyətli yeyinti məhsulları istehsal edən müəssisələrin rəqabətinin artırılmasına, ərzaq məhsullarının təhlükəsizlik standartlarına cavab verməsinə şərait yaratmaqdır. Həyata keçiriləcək tədbirlərin mühüm tərkib hissəsi kimi paytaxtda ərzaq məhsullarının satışı sisteminin tamamilə yeniləşdirilməsi, avtorefrijerator parklarının yaradılması, ixtisaslaşdırılmış «fermer mağazaları» və «yaşıl marketlər» şəbəkəsinin təşkili də nəzərdə tutulur.

İSN-dən bildirilmişdir ki, aqrar-sənaye sektorunun inkişafına dair stimullaşdırıcı tədbirlər sırasında vergi və gömrük rejiminin də təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Sənaye texnoparklarında olduğu kimi, aqrar-sənayenin əsas innovativ modellərindən biri hesab olunan aqrar texnologiyalar parklarına maliyyə, fiskal, vergi, bank və digər sahələr üzrə stimullaşdırıcı tədbirlərin tətbiqi istisna edilmir. Qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalçıları 2014-cü il yanvarın 1-dən daha 5 il müddətinə vergilərdən azad olunublar. Bu siyasət aqrar sektora dəstək xarakteri daşıyır və qarşıdakı 5 ildə aqrar-sənaye ilə bağlı yeni layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcək.

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Audit yoxlamasından məcburi keçməli olan və məcburi auditin obyekti olmayan təsərrüfat subyektləri

Hazırda fəaliyyət göstərən təsərrüfat subyektləri artıq ötən 2013-cü ilin 31 dekabr tarixinə maliyyə hesabatlarının hazırlanması mərhələsindədir. Maliyyə ilinin yekunları ilə əlaqədar olaraq təsərrüfat subyektlərinin rəhbərlərini maraqlandıran əsas suallardan biri də sahibi və ya rəhbəri olduğu müəssisənin məcburi auditdən keçməli olub-olmamasıdır. Nəzərə alsaq ki, fəaliyyət göstərən hüquqi şəxslərin böyük əksəriyyətinin təşkilati-hüquqi forması MMC-dir, deməli, bu sual onları daha çox maraqlandıra bilər. Bu məsələlərə aydınlıq gətirilməsi üçün qanunvericiliyin tələblərinə diqqət yetirmək lazımdır. Ayrı-ayrı qanunverici hüquqi aktlarda məcburi audit haqqında aşağıdakı müddəaların mövcud olduğunu göstərmək olar.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 99.2-ci maddəsində göstərilir ki, açıq səhmdar cəmiyyəti illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur. Həmçinin bu Məcəllənin 100.3-cü maddəsində göstərilir ki, qapalı səhmdar cəmiyyəti bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədləri (maliyyə hesabatlarını) hamının tanış olması üçün dərc etməyə borcludur. Eyni zamanda, həmin Məcəllənin 107.6-cı maddəsində göstərilir ki, bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatının yoxlanılması üçün əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditoru cəlb etməyə borcludur. Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı mütləq keçirilməlidir.

Təşkilati-hüquqi forması məhdud məsuliyyətli cəmiyyət olan təsərrüfat subyektləri ilə bağlı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91.4-cü maddəsində göstərilir ki, «Məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit). Cəmiyyətin illik maliyyə hesabatının auditor yoxlanışı hər hansı iştirakçının tələbi ilə də aparıla bilər. Bu halda auditor yoxlanışı həmin yoxlamanı tələb edən iştirakçının hesabına aparılır. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir». Göründüyü kimi, təşkilati hüquqi forması MMC olan hüquqi şəxslərin də məcburi audit yoxlamasından keçməsi vacibdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 64.8-ci maddəsində göstərilir ki, «Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər». Eyni zamanda, həmin Məcəllənin 64.9-cu maddəsində göstərilir ki, «Təsərrüfat cəmiyyəti iştirakçısının mayasının pulla qiymətləndirilməsi cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir». Məcəllənin bu müddəasından belə nəticəyə gəlmək olar ki, təsərrüfat cəmiyyətləri yenidən təşkil (bölünmə, ayrılma, qoşulma, birləşmə) olunarkən onların nizamnamə kapitalında dəyişikliklər baş verərsə, təsərrüfat cəmiyyəti (MMC, ASC və sair) iştirakçısının mayasının yenidən pulla qiymətləndirilməsinə ehtiyac yaranır. Deməli, belə olan halda da təsərrüfat cəmiyyəti iştirakçısının mayasının yenidən pulla qiymətləndirilməsi audit yoxlamasından keçməlidir.

Qanunvericilikdə ayrı-ayrı fəaliyyətlərin tənzimlənməsində məcburi qaydada auditor yoxlamalarının keçirilməsi tələbləri də nəzərdə tutulmuşdur.

Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 44-cü (kənar audit) maddəsində göstərilir ki, «Bankın və xarici bankın yerli filialının maliyyə fəaliyyəti hər il auditor fəaliyyətini həyata keçirmək üçün xüsusi razılığa (lisenziyaya) malik olan kənar auditor tərəfindən yoxlanılmalıdır».

**Davamı növbəti sayımızda**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

**4-cü MƏRHƏLƏ**

***Sınaq balansını hazırlamaq***

Məqsəd hesabat dövrünün sonuna baş kitabda uçotu aparılan hesabların son qarlıqlarını müəyyən etməkdir. Bunun üçün hesabların son qarlıqlarının debet və kredit üzrə bərabərliyinin yoxlanılmasını asanlaşdıran şaquli siyahı tərtib olunur.

Sınaq balansı balans hesablarının №-sini, adlarını, aktivlər üzrə debet qalıqlarını və öhdəliklər, kapital, gəlirlər və xərclər üzrə kredit qalıqlarını əks etdirilən aşağıdakı formada tərtib olunan cədvəldir *(bax: Cədvəl 1)*.

Məsələn, malların pərakəndə satışı ilə məşğul olan ticarət obyektinin 01.01.2014-cü il tarixinə 121000 manat dəyərində aktivləri, 81000 manat borcları və 40000 manat nizamnamə kapitalı olmuşdur. Bu göstəricilər sınaq balansı üzrə aşağıdakı kimi təqdim edilmişdir *(bax: Cədvəl 2)*.

Sınaq balansının hazırlanması qaydasının tam və aydın başa düşülməsi üçün daha geniş praktik misal üzərində izahlarımızı təqdim etmək istəyirik. Aşağıda göstərilən əməliyyatlar deməkolar ki, müəssisədə baş verən əməliyyatların çoxunu əhatə edir və həmin əməliyyatlar üzərində ikili yazılışların və sınaq balansının hazırlanması üzrə verilən izahlar oxucular üçün yetərli olacağına inanırıq.

***Geniş misal***

Pərakəndə ticarət obyektində bir əməliyyat dövründə sənədlərlə təsdiqlənməklə aşağıdakı əməliyyatlar baş vermişdir *(bax: Cədvəl 3)*.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

**SINAQ BALANSI**
**«___» ___________ il tarixinə**

| Hesabın №-si | Hesabın adı | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | **CƏMİ** | | |

Cədvəl 2

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ SINAQ BALANSI**
**01.01.2014-cü il tarixinə**

| Hesabın №-si | Hesabın adı | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| 111 | Avadanlıqlar | 20000 | |
| 205 | Mallar | 34000 | |
| 221 | Kassa | 27000 | |
| 211 | Alıcıların debitor borcları | 40000 | |
| 531 | Malsatanlara olan qısamüddətli kreditor borclar | | 78900 |
| 533 | İşçilərə əmək haqqı borcları | | 1700 |
| 522 | Sosial sığorta üzrə kreditor borclar | | 400 |
| 301 | Nizamnamə kapitalı | | 40000 |
| | **CƏMİ** | **121000** | **121000** |

Cədvəl 3

| № | ƏMƏLİYYATIN MƏZMUNU | MƏBLƏĞ |
|---|---|---|
| 1 | Təsisçidən nizamnamə kapitalı qoyuluşu kimi müəssisənin kassasına pul daxil olub | 30000 |
| 2 | Müəssisənin milli valyutada bank hesabına bank krediti daxil olmuşdur (kredit alınmışdır) | 190000 |
| 3 | Milli valyutada bank hesabından kassaya nağd pul götürülmüşdür | 38000 |
| 4 | Milli valyutada bank hesabından bank xidməti haqqı silinmişdir (tutulmuşdur) | 190 |
| 5 | Bank xidməti xərcləri hesablanıb | 190 |
| 6 | Malsatandan generator avadanlığı alınmışdır | 30000 |
| 7 | Malsatandan kassa aparatı avadanlığı alınmışdır | 20000 |
| 8 | Alınmış generator və kassa aparatının dəyəri milli valyutada bank hesabından malsatana ödənilib | 50000 |
| 9 | Malsatandan mallar alınmışdır (40000 ədəd, vahidinin qiyməti 4,00 manatdan) | 160000 |
| 10 | Malsatandan eyni adlı mallar alınmışdır (50000 ədəd, vahidinin qiyməti 3,50 manatdan) | 175000 |
| 11 | Malsatandan eyni adlı mallar alınmışdır (10000 ədəd, vahidinin qiyməti 5,00 manatdan) | 50000 |
| 12 | Alınmış malların dəyərinin bir hissəsi milli valyutada bank hesabından malsatana ödənilib | 100000 |
| 13 | Alıcılardan milli valyutada bank hesabına pul daxil olub | 170000 |
| 14 | Malsatandan ofis üçün mebel alınmışdır | 25000 |
| 15 | Alınmış ofis mebelinin dəyəri kassadan malsatana ödənilib | 25000 |
| 16 | İnzibatı sahədə işləyən İşçilərə əmək haqqı hesablanmışdır | 5000 |
| 17 | Mağazada işləyən satıcılara əmək haqqı hesablanmışdır | 13000 |
| 18 | Əmək haqqından 14% gəlir vergisi tutulmuşdur (yəni, dövlət büdcəsinə ödənilməli vergi) | 2520 |
| 19 | Əmək haqqından 3% məcburi sosial sığorta haqqı tutulmuşdur | 540 |
| 20 | İnziabti sahə üzrə məcburi sosial sığorta haqqı hesablanıb (əmək haqqının 22 %-i qədər) | 1100 |
| 21 | Mağaza sahəsi üzrə məcburi sosial sığorta haqqı hesablanıb (əmək haqqının 22 %-i qədər) | 2860 |
| 22 | Elektrik enerjisi xərci hesablanmışdır (mağaza sahəsində elektrik enerjisi istifadə olunmuşdur) | 1500 |
| 23 | İstifadə olunmuş elektrik enerjisinin dəyəri kassadan "Bakıelektrikşəbəkə" ASC-yə ödənilib | 1500 |
| 24 | Su sərfi xərcləri hesablanmışdır (mağaza sahəsində su istifadə olunmuşdur) | 700 |
| 25 | Qaz sərfi hesablanmışdır (ofisdə qaz istifadə olunmuşdur) | 900 |
| 26 | İstifadə olunmuş qazın dəyəri milli valyutada bank hesabından "Azəriqaz" ASC-yə ödənilib | 900 |
| 27 | İcarəyə götürülmüş ofis binasına görə icarə haqqı hesablanmışdır | 2500 |
| 28 | Əmək haqqından tutulan gəlir vergisi milli valyutada bank hesabından dövlət büdcəsinə ödənilib | 2520 |
| 29 | Alıcılara mal satılmışdır - satış dəyəri ilə (71000 ədəd, vahidinin satış qiyməti 5,40 manat) | 383400 |
| 30 | Satılmış malın alış dəyəri (71000 ədəd satılıb, vahidinin orta alış qiyməti ilə hesablamaq) | 273350 |
| 31 | Telefon danışıq haqqı hesablanıb | 270 |
| 32 | Alınmış kreditə görə kredit faizi hesablanıb (yəni, ödənilməli olan kredit faizi) | 12660 |
| 33 | Alıcılardan kassaya pul daxil olub | 150000 |
| 34 | Alınmış malların dəyərinin bir hissəsi kassadan malsatana ödənilib | 160000 |
| 35 | Bankdan alınmış kreditin bir hissəsi milli valyutada bank hesabından ödənilib | 110000 |
| 36 | İşçilərə kassadan əmək haqqı nağd şəklində verilmişdir | 8500 |
| 37 | Ofisdə istifadə etmək üçün dəftərxana satan mağazadan dəftərxana malları alınmışdır | 150 |
| 38 | Dəftərxana mallarının dəyəri kassadan ödənilmişdir | 150 |
| 39 | Dəftərxana malları ofisdə istifadə edilmişdir | 150 |
| 40 | Əmək haqqından tutulan sosial sığorta haqqı milli valyutada bank hesabından DSMF-na ödənilib | 300 |
| 41 | İşçilərə əmək haqqının bir hissəsi milli valyutada bank hesabından əmək haqqı kartlarına yüklənmişdir | 5000 |
| 42 | 22% hesablanmış sosial sığorta haqqının bir hissəsi milli valyutada bank hesabından DSMF-na ödənilib | 1500 |
| 43 | Kredit faizi tam olaraq milli valyutada bank hesabından ödənilib | 12660 |
| 44 | Azalaq qalıq metodu üzrə amortizasiya hesablanıb - avadanlıq (70000 x 25%) | 17500 |
| 45 | Azalaq qalıq metodu üzrə amortizasiya hesablanıb - mebel (25000 x 20%) | 5000 |
| 46 | Gəlirlər hesabının bağlanması | 383400 |
| 47 | Xərclər hesabının bağlanması | 336680 |
| 48 | Mənfəət vergisi hesablanıb (mənfəət vergisi xərcləri = (383400 - 336680) x 20% | 9344 |
| 49 | Mənfəət və zərərlər hesabı bağlanır (bölühdürülməmiş mənfəətin məbləği) | 37376 |

vergi təqvimi

**YANVAR**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| 20 | **21** | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | **31** | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 yanvar - «(1)», «(2)»
21 yanvar - «1-1», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11»
31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

_Birinci metod:_ Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

_İkinci metod:_ Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Vergilər Nazirliyinin
TELEFON XİDMƏTİ
195
www.taxes.gov.az

beynəlxalq panoram

# Çində vergi güzəştlərinin bir hissəsi ləğv ediləcək



Ölkənin maliyyə naziri Lu Civeyin sözlərinə görə, Çində yerli hakimiyyət orqanları şirkətlər üçün son dərəcə böyük güzəştlər təklif etdikləri üçün, vergi güzəştləri sisteminin genişmiqyaslı rekonstruksiyası aparılacaq. Hazırda mövcud olan yerli vergi güzəştləri azad bazarın fəaliyyətinə əngəl törədir. Yerli hakimiyyət orqanları tez-tez şirkətlərə investisiyaların həcmini çoxaltmağı və iqtisadi artımı stimullaşdırmağı təklif edirlər, lakin bu zaman ekologiyaya mənfi təsirlər kimi amillər nəzərə alınmır. Lu Civey, həmçinin, maliyyə böhranına düşməmək üçün yerli idarəetmə orqanlarının büdcələrinin daha şəffaf olmasının zəruriliyini də vurğulamışdır. Hazırda sosial xərclərin böyük qisminə Çinin yerli hakimiyyət orqanları cavabdehlik daşıyırlar, bununla yanaşı, onların bir sıra müstəqil gəlir mənbələri də vardır. Bu isə o deməkdir ki, yerli orqanların xərcləri maliyyələşdirmək imkanları torpaq sahələrinin icarəyə verilməsindən və satılmasından da asılıdır.

# Gömrük İttifaqı şəkər xammalının daşınması üçün rüsumu artırır

*Gömrük İttifaqına daxil olan ölkələrin ərazisində yanvar ayından başlayaraq şəkər xammalının bir tonu üçün gömrük rüsumu 140 dollardan 171 dollara qaldırılmışdır.*

Daşıma rüsumunun artırılması və ya azaldılması Nyu-York xammal birjasındakı qiymət dinamikası ilə tərs mütənasibdir. Avropa İqtisadi Komissiyasının hesabatlarında bildirildiyi kimi, noyabr ayında birjada şəkər xammalının bir tonunun orta aylıq qiyməti 391,08 dollar olub.

Rusiya Şəkər İstehsalçıları İttifaqının proqnozuna əsasən, bu mövsümdə (2013-cü ilin avqustundan 2014-cü ilin iyulunadək) yerli şəkər çuğunduru məhsulu azaldığına görə, şəkər xammalının daşınması 450 min ton artaraq 700-800 min tona çata bilər. Araşdırma mərkəzləri hesab edirlər ki, Rusiyada əvvəlki mövsümdə 4,75 milyon ton şəkər çuğunduru hasil olunduğu halda, həmin göstərici bu mövsümdə 4,43 milyon tona düşəcək.

Dünya bazarında isə şəkər xammalının qiyməti azalaraq 2010-cu il səviyyəsinə düşüb və aparıcı analitiklərin rəyinə görə, yaxın gələcəkdə qiymətin artması gözlənilmir.

# Fransada vergi dərəcələrinin azaldılmasına 2017-ci ildən başlanılacaq

*Maliyyə naziri Pyer Moskoviçi bəyan etmişdir ki, əgər büdcə kəsirinin aradan qaldırılması üzrə proqramın həyata keçirilməsi nəzərdə tutulan qrafik üzrə davam edərsə, eləcə də əldə olunacaq iqtisadi artım hökumətə fiskal siyasəta yenidən baxmağa imkan verərsə, 2017-ci ildən vergilərin azaldılmasına başlanılacaq.*

Ölkə prezidenti Olland şirkətlərin əmək xərclərini 30 milyard dollar azaldacağını vəd etməsinin ardınca hökumət hazırda mürəkkəb Vergi Məcəlləsinin sadələşdirilməsi məqsədilə biznes liderləri ilə danışıqlara başlamağı planlaşdırır.

Bundan əvvəl Fransa prezidenti vergilərin 2015-ci ildə azaldıla biləcəyini bəyan etmişdi. Maliyyə naziri isə son bəyanatında bildirmişdir ki, vergilərin azaldılması ilə bağlı istənilən addımın atılması prezidentin yeni il ərəfəsində mətbuat konfransında ifadə etdiyi məqsədlərin vaxtında yerinə yetiriləcəyindən, eləcə də ölkənin iqtisadi artımından asılı olacaq. «Bu il iqtisadi artım 1 faizdən yalnız o halda çox ola bilər ki, bütün tərəflər rəqabətliliyə və iqtisadi enmənin dayandırılmasına yardım edən islahatları həyata keçirsinlər», - maliyyə naziri bildirmişdir.

Xarici ölkələrin vergi sistemi:

# Rusiya Federasiyası

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edir

**Əvvəli ötən sayımızda**

**Əlavə dəyər vergisi:** 2012-ci ildə ƏDV üzrə vergi daxilolması 60,7 mlrd. dollar təşkil etməklə ümumi vergi daxilolmasının 18%-ni təşkil etmişdir. Ölkədə ƏDV-nin 0 dərəcə ilə tutulduğu ixrac əməliyyatları və beynəlxalq nəqliyyat xidmətləri göstərən müəssisələrə ƏDV-nin qaytarılması həyata keçirilir. 2012-ci ildə 48,5 mlrd. dollar məbləğində vəsait qaytarılmışdır.

Yalnız RF qanunvericiliyinə uyğun təsis olunan hüquqi şəxslər və ölkədə sahibkarlıqla məşğul olan qeyri-rezidentlər deyil, fərdi sahibkarlar da ƏDV ödəyiciləri hesab olunur.

Mal və xidmətlərin Rusiya ərazisində təqdim edilməsi və ya idxal edilməsi ƏDV-yə cəlb olunur. Rusiya sərhədlərindən kənarda ölkənin rezidenti olan müəssisəyə və ya RF-də yerləşən daimi nümayəndəliyə təqdim olunan bəzi xidmətlər Rusiyada təqdim olunmuş hesab olunur və «reverse charge» mexanizminə uyğun olaraq həmin xidmətlər üzrə ƏDV son alıcısı (resipient) tərəfindən ödənilir. «Reverse charge» mexanizminə konsaltinq, hüquqi, mühasibatlıq xidmətləri, mühəndislik, reklam, marketinq, proqram təminatı və araşdırma-tədqiqat işləri aid edilir.

ƏDV-nin standart dərəcəsi 18% təşkil edir. Azaldılmış 10% dərəcə ərzaq tədarükü, dərman preparatları, uşaq geyimi istehsalına və dövri nəşrlərə şamil olunur. 0 dərəcə ilə ƏDV ixrac və beynəlxalq nəqliyyat xidmətlərinə aid edilir.

Rusiyada müəyyən fəaliyyətlər ƏDV-dən azad edilir. Buraya bir sıra tibbi ləvazimatlar və xidmətlər, fərdi evlərin və torpaq sahələrinin satışı, ictimai nəqliyyat xidmətləri, qeyri-kommersiya təşkilatları tərəfindən göstərilən təhsil xidmətləri, bank əməliyyatları, sığorta əməliyyatları, hüquq xidmətləri aid edilir.

**Gəlir vergisi:** 2012-ci ildə Rusiya Federasiyasında fiziki şəxslərin gəlir vergisi ümumi vergi daxilolmasının 22%-ni təşkil etmişdir. RF rezidenti olan fiziki şəxslər bütün dünya üzrə əldə etdikləri gəlirlərdən, qeyri-rezident fiziki şəxslər isə yalnız Rusiya mənbəyindən əldə etdikləri gəlirlər üzrə gəlir vergisinin ödəyiciləridir.

Gəlir vergisinin vahid dərəcəsi 13%-dir. Bir qayda olaraq, gəlir vergisi ödəniş edilən zaman mənbədə tutulur. Sahibkarlıq və peşə gəlirləri də qiymətləndirilmə əsasında gəlir vergisinə cəlb oluna bilər.

Fiziki şəxslərin muzdlu işdən, müstəqil fəaliyyətdən, sahibkarlıqdan, həmçinin əmlakın özgəninkiləşdirilməsindən əldə etdikləri gəlir, dividend, faizlər, sığorta müqaviləsi üzrə ödənişlər, royalti, icarə haqqı məbləğləri vahid dərəcə ilə gəlir vergisinə cəlb olunur.

Rezident fiziki şəxslərə yerli və xarici mənbədən ödənilən dividendlərdən 9% dərəcə ilə ödəmə mənbəyində vergi tutulur. Bank əmanətləri üzrə faizlər vergidən azaddır. Yerli və xarici valyutada olan əmanətlər üzrə Mərkəzi Bankın uçot (yenidən maliyyələşmə) dərəcəsi üstəgəl 5% həddindən yuxarı olan faizlər 35% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

Gəlir vergisi üzrə azadolmalara, əsasən, dövlət və bələdiyyə istiqrazlarından əldə olunan faiz gəlirləri, dövlət pensiyaları, icbari sığorta və ya uzunmüddətli sığorta müqavilələri üzrə əldə edilən gəlirlər, bölüşdürülməmiş mənfəət istisna olmaqla, kapitalın artımından əldə edilən bonus səhmləri aid edilir.

**Əmlak vergisi:** Rezident müəssisələrin (həmçinin bank və sığorta təşkilatlarının) bütün dünya üzrə malik olduqları daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən və ya Rusiyada əmlaka sahib olan qeyri-rezidentlərin əsas vəsaitləri əmlak vergisinə cəlb olunur. Hüquq assosiasiyaları, mədəni irs, Rusiya Gəmilərin Beynəlxalq Qeydiyyatında qeydiyyata alınmış gəmilər, elmi institutlar, Xüsusi İqtisadi Zonalarda fəaliyyət göstərən müəssisələr əmlak vergisindən azad olunurlar. 1 yanvar 2013-cü il tarixdən balansda əsas vəsait kimi göstərilmiş əmlak bu vergidən azad olunmuşdur. Əmlak vergisi federal səviyyədə tənzimlənən regional vergidir. Bu verginin maksimum dərəcəsi 2,2%-dir (regionlar üzrə fərqlənə bilər) və əsas vəsaitlərin orta illik qalıq dəyərindən hesablanır.

**Torpaq vergisi:** Torpaq sahəsinə malik olan müəssisələr bələdiyyə vergisi ödəyirlər. Dini təşkilatlar, gömrük və təhlükəsizlik məqsədləri üçün təyin olunmuş torpaqlar, XİZ-lərdə fəaliyyət göstərən təşkilatlar bu vergidən azaddırlar. Vergitutma bazası dövlət torpaq reyestrində müvafiq ilin 1 yanvar tarixinə torpağın müəyyən olunmuş qiymətidir. Vergi dərəcəsinin yüksək həddi federal səviyyədə kənd təsərrüfatı və yaşayış məqsədləri üçün 0,3%, digər təyinatlı torpaqlar üçün isə 1,5% həddində müəyyən olunmuşdur.

**Sadələşdirilmiş vergi rejimi:** Hüquqi şəxs və fərdi sahibkarlar sadələşdirilmiş vergi rejiminə keçmək barədə ərizənin verildiyi il ərzində dövriyyələri müəyyən məbləğdən artıq olmadığı halda, sadələşdirilmiş vergi rejimini seçə bilərlər. Lakin bank və sığorta təşkilatları, investisiya fondları, özəl pensiya fondları (qeyri-dövlət), səhmlərinin 25%-dən artıq hissəsi digər hüquqi şəxslərə məxsus olan hüquqi şəxslər, 100 nəfərdən artıq işçisi olan hüquqi şəxslər, amortizasiya olunan aktivlərinin dəyəri 100 mln. rubldan (3,1 mln. dollar) artıq olan hüquqi şəxslər sadələşdirilmiş vergi rejimi seçə bilməzlər.

Sadələşdirilmiş vergi rejimi tətbiq edən hüquqi və fiziki şəxslər gəlir vergisi, ƏDV və əmlak vergisini ödəməkdən azad olunurlar. Lakin bu şəxslər dövlət pensiya fonduna icbari, sosial və tibbi sığorta ödənişləri etməlidirlər. Sadələşdirilmiş vergi rejimində vergi ödəyicisi nağd şəkildə dövriyyəsinin 6%-i həcmində və ya mənfəətindən (gəlir çıxılsın icazə verilən xərclər) 15% həcmində vergi ödəmək metodunu seçə bilər. Ödənişlər vergi ödəyicisinin özünün tərtib etdiyi bəyannamə üzrə hər rübdən sonrakı ayın 25-dək ödənilməlidir.

**2012-ci ildə Rusiya Federasiyasında vergi daxiolmalarının strukturu**




krossvord



**Yuxarıdan aşağı:**

1.Şahmat termini. Vəzirə hücum; 2.Orqanizmin xarici və daxili mühitdə baş verən qıcıqlanmalara qarşı sinir sisteminin iştirakı ilə verdiyi cavab reaksiyaları; 3.Kişi adı; 4.Gürcüstanda çay; 6.Hüquqi termin, cinayətdə iştirak etməmək barədə əsaslı sübutlardan biri; 7.Özbək, qazax, qaraqalpaq, başqırd, tatar və başqa türk xalqlarının qəhrəmanlıq dastanı; 8.Hər hansı bir sahədə yeni, proqressiv ideyaları tətbiq edən şəxs; 13.Kiçik Asiyadakı Urartu dövlətinin kralı; 14.Sovet avtomobil markası; 16.Stolüstü oyun; 17.Antarktidada aktiv vulkan; 19.Mordoviyada çay; 21.Qədim mədəniyyət ocaqlarından biri; 22.İslam peyğəmbəri Məhəmmədin həyat yoldaşlarından biri, xəlifə Əbu Bəkirin qızı.

**Soldan sağa:**

1.Gül, 1990-cı ildən 20 Yanvar faciəsinin rəmzinə çevrilib; 5.Qərbi Afrikada ölkə; 9.Yüksəklikdən axan çaylarda qayıqlarla yerinə yetirilən çay idmanı növü; 10.Yunanıstanda dağ massivi; 11.Balkan və Anadolu yarımadaları arasında, Aralıq dənizinə bağlı bir dəniz; 12.İncəsənətdə iri müasir şəhərlərin həyatını əks etdirən cərəyan; 14.İsrailin kəşfiyyat və xüsusi təyinatlı əməliyyatlar həyata keçirən xüsusi xidmət orqanı; 15.Azərbaycanın milli yeməyi; 18.Qəbul edilmiş ölçü, nümunə, etalon; 20.Qaradağ rayonunda qəsəbə; 23.Mərhum Azərbaycan şahmatçısı, qrossmeyster, Avropa çempionu, üçqat Azərbaycan çempionunun adı; 24.Ümumi tapşırıq və fəaliyyətlə məşğul olan dəstə; 25.Rusiya Federasiyasında şəhər, Zabaykalsk diyarının inzibati mərkəzi; 26.Görkəmli sərkərdə və dövlət xadimi, e.ə.336-cı ildən Makedoniya hökmdarı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Xarço; 2.Rabat; 3.Saratov; 4.Nəsimi; 5.Düşes; 6.Ferrari; 7.Sentavo; 12.Şahnamə; 13.Dassler; 15.Orinoko; 16.Evrika; 18.Nurek; 20.Barıt; 21.Tunel.

**Soldan sağa:** 1.Xorasan; 5.Defis; 8.Roberts *(Culia)*; 9.Şirin; 10.Oktet; 11.Mustafa; 12.Şedevr; 14.Domino; 17.Həsənov *(Pərviz)*; 19.İrbit; 24.Adler *(Alfred)*; 25.İzopren; 26.Əsrik; 27.Apostol.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləşçilərimiz İrandan iki medalla qayıtdılar

*Yanvarın 24-də İran İslam Respublikasının paytaxtı Tehranda yunan-Roma güləşi üzrə 34-cü «Yadigar İmam Kuboku» Beynəlxalq turnirinə yekun vurulmuşdur.*

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, «7 tir» Arenada təşkil olunmuş turnirdə yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandası da mübarizə aparmışdır.




Yarışın sonuncu günündə 66, 75, 85 və 130 kiloqram çəki dərəcələrində güləşçilər xalça üzərinə çıxmışlar. Millimizin heyətində Azad Əliyev (66 kq), Niyaməddin İbrahimov (75 kq), Orxan Nuriyev (85 kq) və Valera Rodriqes (130 kq) mübarizə aparmışlar.

Azərbaycan güləşçisi Azad Əliyev gürcüstanlı, macarıstanlı və iranlı rəqiblərinə qalib gələrək finala yüksəlmişdir. Həlledici görüşdə Gürcüstan idmançısı Marat Abuladze ilə qarşılaşan güləşçimiz rəqibini məğlub edərək turnirin qızıl medalını qazanmışdır.

Turnirdə Azərbaycanı referi kimi Beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil etmişdir. Qeyd edək ki, yarışın ilk günündə 59 kiloqram çəki dərəcəsində mübarizə aparan Elman Muxtarov bürünc medala sahib olmuşdu. Ümumi komanda hesabında Azərbaycan millisi üçüncü olmuşdur. İran komandası birinci, Macarıstan kollektivi isə ikinci pillədə qərarlaşmışlar.

Beynəlxalq turnirdə Azərbaycan güləşçiləri ilə yanaşı, İran, İraq, Türkiyə, Koreya Xalq Demokratik Respublikası, Yaponiya, Gürcüstan, Macarıstan, İsveç və Ermənistandan olan pəhləvanlar mübarizə aparmışlar.

# «Synergy Baku»ya daha bir dəvət

*Azərbaycanın ilk peşəkar velosiped komandası planetin ən güclü kollektivləri ilə mübarizə aparacaqdır.*

Beynəlxalq Velosipedçilər İttifaqı (UCİ) birgünlük «Almatı turu»na («Tour of Almaty») 1.1 kateqoriyasının verilməsi ilə bağlı qərar qəbul etmişdir. Bu isə o deməkdir ki, cari il avqustun 3-də keçiriləcək nüfuzlu yarışda «Pro Tur» komandaları da iştirak edəcəkdir.

Artıq təşkilatçılar «Almatı turu»nda iştirak etmək üçün 20 komandaya dəvət göndərmişlər. Onların arasında «Astana Pro Team», «Katusha Team», «Giant-Shimano», «Movistar», «Omega Pharma-Quick-Step» kimi dünya liderləri də vardır.

Azərbaycan Velosiped İdmanı Federasiyasından bildirmişlər ki, ölkəmizin peşəkar velosiped komandası «Synergy Baku Cycling Project» Kontinental komandası planetin ən güclü kollektivləri ilə mübarizə aparmaq üçün növbəti dəfə «Astana turu»na dəvət almışdır. İştirakçılar birgünlük yarışda 186 kilometr məsafə qət etməlidirlər.

# Möhtəşəm idman bayramına 500 gün qalır

**Azərbaycanın paytaxtı Bakıda keçiriləcək birinci Avropa Oyunlarının açılış mərasiminə 500 gün qalır. Bu həftə «Bakı-2015» Təşkilat Komitəsi Avropa Oyunlarında iştirak edəcək 49 Milli Olimpiya Komitəsinə idman növlərinin təsnifatı haqqında məlumatı göndərməyə başlayacaqdır.**

Avropa Oyunlarının proqramında yeddi idman növündən az olmamaq şərtilə 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunları üçün təsnifat xarakterli yarışlar olacaqdır. Bunlar velosiped idman növü, güllə atıcılığı, üzgüçülük, stolüstü tennis, taekvondo, triatlon və çimərlik voleyboludur. Bundan başqa, «Bakı-2015»in proqramına digər idman növləri üzrə Olimpiya kvalifikasiyası əlavə edilə bilər. İlk Avropa Oyunlarının proqramında hazırda 18 idman növü vardır və yarışlarda 5 min 400-dən artıq idmançının iştirakı gözlənilir.




Beynəlxalq Olimpiya Komitəsinin (BOK) üzvü və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki qeyd etmişdir ki, Bakı gələn il keçiriləcək Avropa Oyunları çərçivəsində yüksək səviyyəli idman yarışının təşkili üçün çox əlverişli şəraitə malikdir: «Avropa Oyunlarına hazırlıq mərhələsinin 500 gününə daxil olan Bakıya uğurlar arzulayıram. Azərbaycan bütün Avropanın qürur duyacağı yüksək keyfiyyətli idman tədbiri təşkil edəcəkdir. Biz bu mühüm hədəfə nail olmaq və əzəmətli idman tədbirinin hazırlıq işlərində irəliləyişi əldə etmək məqsədilə «Bakı-2015»ə cəlb edilən hər kəsi təbrik edirik».

«Bakı-2015» Əməliyyat Komitəsinin baş əməliyyat rəhbəri Cim Şer demişdir: «Bu günədək müsbət irəliləyiş əldə edilmişdir. İnkişaf davam etməkdədir, bizim heyətlər arasında əsassız özünə güvənmə hallarına yol verilməyəcəkdir. Növbəti 500 gün ərzində Avropa Olimpiya Komitəsi, Azərbaycan xalqı və Avropa idmançıları qarşısında öhdəliklərimizin yerinə yetirilməsi üçün hələ görüləcək çox iş vardır. Lakin biz bu günədək əldə etdiyimiz irəliləyişdən məmnunuq».

mozaika

texnologiya

## Susuz işləyən paltaryuyan

*Argentinalı iki tələbə susuz işləyən paltaryuyan maşın icad etmişlər. Bu, əslində, Kordova Milli Universitetinin tələbələri Nikolas Arayya və Nikolas Vuksanovikin diplom işidir. Onlar su əvəzinə karbon dioksidindən və ya karbon qazından istifadə etmək təklifini irəli sürmüşlər.*

Arayya və Vuksanovik bu ideyanı müasir dünyanın şirin su çatışmazlığı və ekoloji problemlərinin həllinə özünəməxsus töhfə hesab edirlər. Az da olsa, su işlədən təmizləmə qurğularından fərqli olaraq, «Nimbus» adlı paltaryuyan maşın tam susuz rejimdə işləyir. Bundan başqa, o, adi paltaryuyan maşından xeyli az elektrik enerjisi sərf edir. Belə təmizləmədən sonra paltarı nə qurutmağa, nə də ütüləməyə ehtiyac qalır. Gənc mütəxəssislər istehsal dizaynı sahəsində yüksək qiymət almış və artıq öz ixtiralarını patentləşdirmişlər.

## «Rəqəmsal kənd»



Cənubi Afrika Respublikasında «Rəqəmsal kənd» yaradılmışdır. Bu, Yohannesburq şəhərinin yaxınlığında yerləşən Midrand kəndində günəş enerjisini elektrik enerjisinə çevirən böyük bir kompleksin işə salınması sayəsində mümkün olmuşdur. Belə komplekslər artıq Afrika qitəsinin 19 ölkəsində fəaliyyət göstərir. Bunun vasitəsilə ucqar əyalətlərdə yaşayan əhali səhiyyə və təhsil sahələrinə çıxış əldə edə bilir. Yeni «Rəqəmsal kənd»də 24 şagird üçün nəzərdə tutulmuş məktəb var. Burada kompüterlər daim internetə qoşulu vəziyyətdədir.

Məktəbin şagirdi Lefa Makqato kasıb rayonda anadan olduğunu, orda heç bir uşağın, ümumiyyətlə, kompüter görmədiyini deyir. Bu məktəbdə çox şeyi - kompüterdən istifadə etməyi, məktub yazıb mesaj göndərməyi öyrəndiyini qeyd edən Lefa universitetə qəbul olunmaq üçün ərizə göndərə bildiyi üçün məktəbə minnətdarlığını bildirir.

Günəş batareyalarının işə düşməsi ilə kənddə tibb mərkəzi də açılmışdır. Müəssisədə, həmçinin, həkim məsləhəti almaq, dünyanın hər yerindəki mütəxəssislərlə video-əlaqə yaratmaq mümkün olacaqdır. Yaxın günlərdə kənddə polis məntəqəsi və poçt xidməti də fəaliyyətə başlayacaqdır.

madaniyyat

## İçərişəhər «gücləndirilmiş mühafizə» statusunda



*Ötən ilin dekabrında Parisdə UNESCO-nun Silahlı Münaqişə zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Komitəsinin 8-ci sessiyası keçirilmişdir. Gündəlikdə bir sıra məsələlər, o cümlədən İçərişəhərə xüsusi əhəmiyyət kəsb edən «gücləndirilmiş mühafizə» statusunun verilməsi məsələsi öz əksini tapmışdır.*

«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən «AzərTAc»a bildirmişlər ki, milli-mədəni irsimiz olan İçərişəhərə «gücləndirilmiş mühafizə» statusunun verilməsi ilə bağlı sorğu UNESCO-da nəzərdən keçirilmiş və bununla bağlı müsbət qərar qəbul edilmişdir.

İçərişəhərlə bağlı müraciətin təqdimatı iclasda iştirak edən «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nümayəndə heyəti tərəfindən keçirilmişdir.

Bu statusa malik mədəni obyektlər Haaqa Konvensiyası və onun İkinci Protokoluna qoşulmuş ölkələrin silahlı qüvvələri tərəfindən tanınan xüsusi emblem ilə nişanlanır və gücləndirilmiş mühafizə ilə təmin olunur.

Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhərə «gücləndirilmiş mühafizə» statusunun verilməsi ilə bağlı sorğu idarə tərəfindən ilk dəfə 2010-cu ildə UNESCO-nun adıçəkilən komitəsinə təqdim olunmuşdur.

Ötən müddət ərzində komitənin tövsiyələrinə əsasən, ölkə qanunvericiliyi Silahlı Münaqişə zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Haaqa Konvensiyası və onun İkinci Protokolunun tələblərinə uyğunlaşdırılmış, habelə idarə tərəfindən İçərişəhərin qorunması ilə bağlı bir sıra daxili qayda və prosedurlar təkmilləşdirilmişdir. Bununla yanaşı, silahlı münaqişələr zamanı «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisindən və tarixi-memarlıq abidələrindən hərbi məqsədlər üçün istifadə olunmayacağına dair Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Bəyannaməsi və beynəlxalq humanitar hüququn norma və prinsiplərinin Azərbaycan Respublikasının Silahlı Qüvvələrində tətbiqi ilə bağlı məlumat komitə üzvlərinə təqdim olunmuşdur.

İçərişəhərin mühafizəsi məsələsinə beynəlxalq səviyyədə verilən bu yüksək qiymət Prezident İlham Əliyevin ölkəmizin milli-mədəni irsinin qorunması sahəsində uğurlu dövlət siyasətinin daha bir bəhrəsidir. Azərbaycanın mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi-memarlıq irsinin incilərindən biri olan İçərişəhərin qorunması və dünyada təşviqində Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük rolu xüsusi qeyd edilməlidir.

İçərişəhərin UNESCO-nun «Gücləndirilmiş mühafizə rejimli abidələrin siyahısı»na daxil edilməsi Azərbaycanın zəngin tarixi-memarlıq irsinin bu incisinin qorunmasının beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin göstəricisidir.



ELAN

**«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

**Müdriklər deyib ki...**

***«Məqsəd olmadan fəaliyyət olmur, maraq olmadan məqsəd olmur, fəaliyyət olmadan isə həyat. Maraqların, məqsədlərin və fəaliyyətlərin mənbəyi - ictimai həyatın mahiyyətidir».***

*V. Q. Belinski (1811-1848)*

